RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 38 (8631) CÜMƏ, 19 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qarabağ Qafqazın inkişaf və quruculuq mərkəzinə çevriləcək

## Prezidentin diqqəti sayəsində işğaldan azad olunmuş ərazilərin bərpası ən qısa zamanda başa çatdırılacaq

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva bir neçə gün əvvəl Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfər etdilər. Bu, dövlət başçısının və birinci xanımın işğaldan azad olunmuş rayonlara sayca beşinci səfəri idi. Cəmi 4 ay ərzində işğaldan azad edilmiş ərazilərimizə ardıcıl beş səfərin edilməsi göstərir ki, İlham Əliyev Qarabağ bölgəsinin dirçəldilməsinə, yenidən qurulmasına xüsusi diqqətlə, həssaslıqla yanaşır.

### Bizim Qələbəmiz tarixi Qələbədir

Bu səfər də əvvəlkilər kimi düşmənə və dünyaya verilən mühüm mesajlar, Ermənistanın Azərbaycan ərazilərində həyata keçirdiyi vandallıqların beynəlxalq ictimaiyyətə çatdırılması, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması istiqamətində infrastruktur layihəsinin təməlinin qoyulması, o cümlədən Prezidentin iştirakı ilə Qarabağda ilk obyektin istifadəyə verilməsi ilə əlamətdar oldu.

Xatırladaq ki, İlham Əliyev və Mehriban Əliyeva əvvəlki səfərlər zamanı Füzuli, Zəngilan və Cəbrayıl rayonlarında olmuşdular. Bu səfərin ən mühüm məqamlarından biri də o idi ki, Prezident İlham Əliyev Laçın rayonunda bayrağımızı ucaltdı. Müzəffər Ali Baş Komandan Azərbaycanın tarixi Qələbəsini Laçın rayonundan bir daha dünyaya bəyan etdi. *“Bax durmuşam burada - Laçın rayonunda. Bu torpaqları düşməndən azad edən Müzəffər Ordunun Ali Baş Komandanı kimi Azərbaycan bayrağını qaldırmışam və bu bayrağın altında Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edirəm. Bizim Qələbəmiz tarixi Qələbədir. Biz tarixi ədaləti bərpa etdik. Biz öz haqlarımızı bərpa etdik, biz şəhidlərimizin qanını aldıq, biz düşməndən qisas aldıq və qayıtmışıq”.*

Bəli, Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq başlanan Vətən müharibəsi işğal altındakı torpaqlarımızın azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi. 44 günlük savaş nəinki müasir, son iki yüz illik tariximizin ən böyük zəfər salnaməsinə, xalqımızın iftixar və milli qürur mənbəyinə çevrildi. Müdrik və uzaqgörən siyasəti ilə müstəqillik tariximizin ən möhtəşəm uğurlarına nail olan, Azərbaycanı dünyada söz sahibi edən Prezident İlham Əliyev bu dəfə ölkəmizi həm də qalib dövlətə çevirdi. İlham Əliyevin qeyd etdiyi kimi, bu qələbə dövlətimizin qüdrətini və xalqımızın əyilməz ruhunu dünyaya göstərdi.

*Ardı 5-ci səh.*

# Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

2021-ci ildə Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi, qüdrətli söz ustadı Aşıq Ələsgərin anadan olmasının 200 illiyi tamam olur.

Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir. Sənətkarın doğma təbiətə məhəbbət və vətənpərvərlik hisslərini vəhdətdə aşılayan, ana dilimizin saflığını, məna potensialını və hüdudsuz ifadə imkanlarını özündə cəmləşdirən dərin koloritli yaradıcılığı Azərbaycan ədəbiyyatının parlaq səhifələrindəndir. Aşıq Ələsgər çox sayda yetirmələrindən ibarət bir məktəb formalaşdırmış və gələcəyin məşhur el şairlərinə qüvvətli təsir göstərmişdir. Azərbaycan aşıq sənətinin ümumbəşəri dəyərlər sırasında qorunan dünya qeyri-maddi mədəni irs nümunələri siyahısına salınması həm də Aşıq Ələsgər sənətinə ehtiramın təzahürüdür.

Aşıq Ələsgərin zəngin poetik irsinin geniş tədqiqi, nəşri və təbliğinin mühüm mərhələsi mədəni-mənəvi dəyərlərimizin bütün daşıyıcılarına həmişə qədirbilənliklə yanaşan Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Sənətkarın yubileyləri məhz Ulu Öndərin təşəbbüsü ilə dövlət səviyyəsində qeyd edilmişdir. Böyük söz ustadının respublikamızda və onun hüdudlarından kənarda 150 illik yubiley mərasimləri keçirilərkən əlamətdar hadisə baş vermiş, azərbaycanlıların əzəli yurdlarından olan qədim Göyçə mahalında, doğulduğu kənddə Aşıq Ələsgərin qəbirüstü abidəsi ucaldılmışdı. Həmin əzəmətli büst soydaşlarımız öz dədə-baba torpaqlarından didərgin salındıqdan sonra erməni vandalları tərəfindən dağıdılsa da, milli-mədəni varlığımızın tərkib hissəsinə çevrilmiş Aşıq Ələsgər irsi silinməz tarixi yaddaş rəmzi kimi yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq Azərbaycan aşıq poeziyasını zirvələrə yüksəltmiş el sənətkarı Aşıq Ələsgərin anadan olmasının 200-cü ildönümünün təntənəli qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birlikdə Azərbaycan Aşıqlar Birliyinin təklifləri nəzərə alınmaqla ustad sənətkar Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 fevral 2021-ci il*



# Uzaqgörən lider və tarixi missiya

Bu gün biz böyük bir gələcək qarşısındayıq. Dövlət başçısının həyata keçirdiyi siyasətdə humanizm prinsipləri öndə tutulur. Vətəndaş amilinin aliliyi təmin olunur. İnsana dəyər verilir, dövlət vətəndaşının rifahı üçün çalışır.

Beynəlxalq aləm də Azərbaycanın yaratdığı üstün dəyərləri görür və qiymətləndirir. Tarixi reallıqlar Prezident İlham Əliyevin dünya miqyaslı lider olduğunu, gələcəyə strateji baxışlarına görə zəmanəmizin bir çox dövlət adamlarından üstünlüyünü göstərir. Azərbaycanın dövlət rəhbərinə qlobal məkanda böyük nüfuz qazandıran əsas cəhətlərdən biri də elə budur!

Ölkə rəhbərinin yüksək fəhmi, irəli sürdüyü mühüm təkliflərin, beynəlxalq səviyyədə təqdim etdiyi təşəbbüslərin zaman-zaman özünü doğrultması ona yüksək nüfuz qazandırır. Bununla yanaşı, fundamental dəyərlərə, ədalətli davranış qaydalarına sadiqliyi Prezident İlham Əliyevə böyük inam yaradıb. Beynəlxalq qurumların ali rəhbərləri, dünya liderləri fərqindədirlər ki, əgər hər hansı bir təklif Azərbaycan Prezidentindən gəlirsə, deməli, bu, dərin təhlillərə, aydın proqnozlara və real həllərə əsaslanır. Ona görə də təklifləri nəzərə almaq gələcəyə hazırlıq üçün faydalıdır.

*Ardı 4-cü səh.*

# Baş nazir Əli Əsədov Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb

Türkiyəyə rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 18-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş Türkiyə Prezidentinin sarayında keçirilib.





# “Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında” 2020-ci il dekabrın 10-da Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2021-ci il*

# “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında 25 fevral 2020-ci il tarixində Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında 1 saylı Protokol”un təsdiq edilməsi barədə

**Azərbaycan Respublikasının Qanunu**

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2020-ci il dekabrın 10-da Bakı şəhərində imzalanmış “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında qarşılıqlı olaraq vizadan azad etmə haqqında 25 fevral 2020-ci il tarixində Bakı şəhərində imzalanmış Sazişə dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında 1 saylı Protokol” təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2021-ci il*

# Azərbaycanın Baş nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Anıtqəbri ziyarət edib

Türkiyədə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun rəhbərlik etdiyi nümayəndə heyəti fevralın 18-də Anıtqəbri ziyarət edib və Atatürkün məzarı önünə əklil qoyub.

AZƏRTAC xəbər verir ki, Baş nazir Anıtqəbir muzeyi ilə tanış olub, xatirə kitabına ürək sözlərini yazıb.









# Baş nazir Əli Əsədov Türkiyənin Vitse-prezidenti Fuat Oktayla görüşüb



Fevralın 18-də Türkiyə Prezidentinin Sarayında Azərbaycan Respublikasının Baş nazirinin qarşılanma mərasimi olub.

AZƏRTAC xəbər verir ki, Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovu qarşılayıb.

Daha sonra Baş nazirlə Vitse-prezident arasında görüş keçirilib.

# Azərbaycanın Baş naziri Əli Əsədov Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla görüşüb



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 18-də Ankarada Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopla görüşüb.

AZƏRTAC xəbər verir ki, Türkiyə parlamentinin sədri Mustafa Şentop görüşdə bildirdi ki, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki şanlı Zəfəri Türkiyədə böyük qürur və coşqu ilə qarşılanıb. Türkiyə Azərbaycan Prezidenti İlham Əliyevin Vətən müharibəsindən sonra irəli sürdüyü yeni regional əməkdaşlıq təşəbbüsünü dəstəkləyir.

Mustafa Şentop qeyd edib ki, yeni nəqliyyat dəhlizlərinin, Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin reallaşdırılması və gələcəkdə atılacaq digər addımlar muxtar respublikanın strateji önəmini daha da artıracaq.

Azərbaycanın Baş naziri Əli Əsədov Türkiyənin 44 günlük Vətən müharibəsinin ilk anlarından ölkəmizin yanında olmasını minnətdarlıq hissi ilə qeyd edib. Baş nazir bildirib ki, işğaldan azad edilən torpaqlarda bərpa işləri başlayıb, bu bölgə dünyanın ən gözəl guşələrindən birinə çevriləcək və Türkiyə şirkətləri bu prosesdə ön sıralardadır.

Əli Əsədov, həmçinin Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin uğurla fəaliyyət göstərdiyini bildirib. Baş nazir vurğulayıb ki, dövlətlərimizin başçıları iki ölkə arasındakı ticarət həcminin 2023-cü ildə 15 milyard dollara çatdırılmasını strateji hədəf kimi müəyyənləşdiriblər. Azərbaycan və Türkiyə hökumətləri, özəl sektorun nümayəndələri bu hədəfin reallığa çevrilməsi üçün mövcud potensialdan istifadə etməlidirlər.

# Ankarada Türkiyə-Azərbaycan Biznes Forumu keçirilib

Fevralın 18-də Ankarada Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun və Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktayın rəhbərliyi ilə Türkiyə-Azərbaycan Biznes Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, forumda iki qardaş ölkənin hökumət nümayəndələri, iş adamları, şirkət rəhbərləri, biznes və ticarət sahələrini təmsil edən tanınmış şəxslər iştirak ediblər.

Forumda çıxış edən Baş nazir Əli Əsədov Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfəri tarixi hadisə kimi dəyərləndirib. O, şanlı Qələbənin əldə olunmasında Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş Türkiyənin göstərdiyi siyasi, mənəvi dəstəyə görə minnətdarlığını bildirib. Əli Əsədov İraqın şimalında 13 türkün amansızcasına qətlə yetirilməsinin Azərbaycanda hiddətlə qarşılandığını forum iştirakçılarının diqqətinə çatdırıb.













Baş nazir bildirib ki, hazırda Türkiyədə Azərbaycan kapitallı 2 minə yaxın şirkət fəaliyyət göstərir. Azərbaycanlı iş adamları bu baxımdan Qafqaz və Mərkəzi Asiya ölkələrindən olan iş adamları arasında liderdir.

Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdə inkişafına yeni təkan verildiyini deyən Baş nazir bildirib ki, bu, ölkələrimiz arasında ticarət dövriyyəsinin, sərmayə qoyuluşunun, turist səfərlərinin artmasına, xalqlarımızın bir-biri ilə daha da yaxınlaşmasına imkan yaradacaq.

Azərbaycanın və Türkiyənin birgə həyata keçirdiyi iri enerji layihələrinin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını vurğulayan Əli Əsədov deyib ki, mühüm infrastruktur layihəsi olan Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə daşınan yüklərin həcmi ötən il 2 dəfə artıb.

Baş nazir deyib: Əminik ki, bu işbirliyi davam edəcək. Azərbaycan artıq 3+3 formatında yeni regional əməkdaşlıq platforması təklif edib. Bu platformanın mühüm tərkib hissəsi Naxçıvandan keçməklə Azərbaycan və Türkiyəni birləşdirəcək yeni dəhlizdir.

“Tarixi Vətən müharibəsində Zəfərdən sonra ölkəmiz üçün yeni dövr başlayıb. İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı ilə bağlı strategiya hazırlanıb. Azərbaycan Prezidentinin dediyi kimi, hədəfimiz Qarabağı dünyanın ən gözəl bölgələrindən birinə çevirməkdir. Artıq bərpa işləri başlanıb və ilkin kontraktlar imzalanıb. Əlbəttə ki, ilkin tərəfdaşlarımız türk qardaşlarımızdır” deyə Əli Əsədov qeyd edib.

Baş nazir bildirib ki, türk şirkətləri artıq infrastruktur layihələrini icra etməyə başlayıblar. Zəfər yolu adlanan Füzuli-Şuşa yolu, həmçinin Toğana-Kəlbəcər yolunun tikintisində artıq türk şirkətləri iştirak edirlər. Bundan əlavə, Füzulidə tikiləcək hava limanının layihəsində də türk şirkətlərinin iştirakı nəzərdə tutulub. Ümumiyyətlə, bərpa işlərinin layihələrində türk qardaşlarımızı görməkdən çox məmnunuq.

Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay çıxış edərək deyib ki, Türkiyə ilə Azərbaycan bir-birinin, sadəcə, qanı ilə, canı ilə qardaşı deyil, eyni zamanda ən önəmli siyasi müttəfiqi, əsas ticarət tərəfdaşı və sərmayəçisidir. Azərbaycan ilə iqtisadi və ticarət münasibətlərimizi ən yüksək səviyyəyə çatdıracağımıza inanıram.

Fuat Oktay vurğulayıb ki, işğalçıların, terrorçuların qarşısında Azərbaycanın yanında olduq. Qarabağ müharibəsində şəhid olan qəhrəman Azərbaycan əsgərlərini və həlak olan 100 dinc sakin qardaşlarımızı rəhmətlə anır, qazilərimizə cansağlığı və uzun ömür diləyirəm.

Türkiyənin Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin bərpasında fəal iştirak edəcəyini bildirən Vitse-prezident deyib ki, Naxçıvan ilə Azərbaycanın digər bölgələri arasında planlaşdırılan dəhlizin açılması ilə Bakı Mərkəzi Asiya bölgəsində önəmli logistik mərkəz halına gələcək.

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov forumda çıxış edərək diqqətə çatdırıb ki, nəqliyyat və tranzit sahəsi Azərbaycan və Türkiyənin ikitərəfli əməkdaşlığında mühüm sahələrdəndir. Bu gün də Türkiyə tərəfi ilə həmin sahələrlə bağlı müzakirələr aparılıb. Son illər Azərbaycan ərazisindən Türkiyə və Orta Asiyaya, eləcə də əks istiqamətdə hərəkət edən TIR-ların sayında əhəmiyyətli artım müşahidə edilib. 2020-ci ildə dinamika 2019-cu illə müqayisədə 74,4 faiz olub.

Nazir bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı əməkdaşlıqda Preferensial Ticarət Sazişi mühüm yer tutur. 2019-cu ildə imzalanmış sazişi artıq Türkiyə parlamenti ratifikasiya edib. Martın 1-dən sənədin qüvvəyə minməsi ticarət əlaqələrimizin inkişafına töhfə verəcək. Bundan başqa, inanırıq ki, Türkiyənin Naxçıvanda ticarət attaşesi təyin etməsi, həmçinin Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq, Azərbaycanın İstanbulda ticarət nümayəndəliyinin təsis edilməsi işlərin daha səmərəli və çevik həyata keçirilməsini təmin edəcək. Sevindirici haldır ki, Azərbaycanda türkiyəli iş adamları geniş təmsil olunur. Türkiyə və Azərbaycan müəssisələri qarşılıqlı olaraq sərmayə qoyuluşunda fəal iştirak edir. Azərbaycan-Türkiyə Birgə İnvestisiya Fondunun təsis edilməsi kimi təşəbbüslər, ölkələrarası iri müəssisələrin və iri layihələrin, xüsusilə birgə texnologiyaların mübadiləsinə istiqamətlənən layihələrin reallaşması bizim qarşımızda duran vəzifələrin daha sürətlə icrasına yardım ola bilər.

Türkiyənin ticarət naziri Ruhsar Pekcan deyib ki, Azərbaycanın Zəfəri bölgəmizin ticari və logistik infrastrukturunu dəyişən tam yeni bir dövrün başlanğıcını yaratdı. Bu yeni mərhələdə də azərbaycanlı qardaşlarımızın yanında olacağıq. Nazir diqqətə çatdırıb ki, dövlət başçılarımızın da qeyd etdiyi kimi, iki ölkə arasında ticarət dövriyyəsini 15 milyard dollara çatdırmaq əsas hədəflərimizdən biridir.

Ruhsar Pekcan qeyd edib ki, bütün dünya pandemiya səbəbindən çətin günlər yaşadığı bir dövrdə Azərbaycanın böyük bir iradə ilə Qarabağı işğaldan azad etməsi hamımızda sonsuz sevinc yaradıb. Şəhidlərimizə Allahdan rəhmət diləyir, Zəfər münasibətilə azərbaycanlı qardaşlarımızı təbrik edirik.

Azərbaycanla indiyədək 400-dən çox layihə həyata keçirildiyini diqqətə çatdıran nazir bildirib ki, artıq Türkiyə şirkətləri Qarabağın bərpası və yenidən qurulması prosesində azərbaycanlı iş adamları ilə sıx əməkdaşlıq şəraitində çalışırlar. İndiyə qədər ortaya qoyduğumuz uğurlu işləri infrastruktur layihələrində də tətbiq edəcəyik.

Forumda Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) idarə heyətinin sədri Orxan Məmmədov, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) rəhbəri vəzifəsini icra edən Yusif Abdullayev, Türkiyə Xarici İqtisadi Əlaqələr Təşkilatının rəhbəri Nail Olpak, Türkiyə-Azərbaycan Biznes Şurasının sədri Selçuk Akat və digərləri çıxışlarında biznes, ticarət və istehsal sahələrində əməkdaşlıq əlaqələrinin yaratdığı sağlam mühitdən danışıblar.

Qırx dörd günlük Vətən müharibəsinin Qələbə ilə başa çatmasını Azərbaycanın və Türkiyənin ortaq sevinci kimi dəyərləndirən natiqlər diqqətə çatdırıblar ki, işğaldan azad olunan torpaqlarda bərpa və quruculuq işlərinin aparılması iqtisadi cəhətdən mühüm əhəmiyyət kəsb etdiyi kimi, həm də mənəvi borcumuzdur.

Forumdakı çıxışlarda Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TANAP və TAP layihələrinin bölgədə iqtisadiyyatın davamlı inkişafına yaratdığı imkanlar yüksək dəyərləndirilib. Birmənalı şəkildə ifadə olunub ki, Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri təkcə iki ölkə və xalq üçün deyil, böyük bir coğrafiyada dinamik inkişafı və firavan həyatı təmin edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın siyasi iradələri və dostluq münasibətləri böyük perspektivlər vəd edir.

Biznes forumun sonunda hökumət üzvləri və iş adamları arasında əməkdaşlığa dair 11 sənəd imzalanıb.

# Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri İran nümayəndə heyəti ilə görüşüb

Fevralın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov İran İslam Respublikasının İslami Şura Məclisinin Milli Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının sədri Müctəba Zonnourinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ali Məclisin sədri nümayəndə heyətini salamlayıb, onları Naxçıvan Muxtar Respublikasında görməkdən məmnunluğunu bildirib. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran arasındakı əlaqələrdən bəhs edən Ali Məclisin Sədri ikitərəfli əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Müctəba Zonnouri Ali Məclisin sədri ilə görüşdən və Naxçıvana səfərindən məmnun olduğunu qeyd edib. Ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdiyini bildirən qonaq İranın daim Azərbaycanın yanında olduğunu bildirib, tarixi qələbə münasibətilə Ali Məclisin sədrinə təbriklərini çatdırıb.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb. İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni görüşdə iştirak edib.

# Kamran ƏLİYEV: "Yeni mərhələdə Azərbaycan və Türkiyə prokurorluqları arasında münasibətlərin daha da intensivləşməsi üçün kifayət qədər əsaslar var"

"Hesab edirəm ki, səfərimiz kifayət qədər uğurlu oldu. Azərbaycanın hüquq mühafizə orqanları ilə Türkiyənin, xüsusilə Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğu ilə əməkdaşlığın dərinləşdirilməsinə dair müzakirələrimiz oldu, fikir və təkliflərimizi bir-birimizə bildirdik. Bildiyiniz kimi, səfər çərçivəsində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edildik".

Bu sözləri Türkiyə Respublikasına rəsmi səfərdə olan Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində deyib.

Görüşlərdə mühüm məsələlərin müzakirə olunduğunu və əhəmiyyətli qərarların qəbul edildiyini vurğulayan Baş prokuror bildirib: "Müzakirə etdiyimiz təklifləri Türkiyə Prezidenti ilə görüşümüzdə də səsləndirdik. Bunlar nədən ibarətdir? Hesab edirik ki, yeni mərhələdə Azərbaycan və Türkiyə prokurorluqları arasında münasibətlərin daha da intensivləşməsi, daha faydalı olması üçün kifayət qədər əsaslar var. Təbii ki, bu, ilk növbədə, İkinci Qarabağ müharibəsinin nəticələri və sonrakı fəaliyyətlərimizlə bağlıdır. Qərara aldıq ki, gələcəkdə münasibətlərimizi həm ikitərəfli formatda, həmçinin beynəlxalq qurumlar çərçivəsində inkişaf etdirək. Ən mühüm məsələlərdən biri odur ki, həmkarım, Türkiyənin Baş prokuroru Bəkir Şahinlə qarşıdakı illərdə türkdilli ölkələrin Baş Prokurorları Şurasının yaradılması üzərində işləmək və türkdilli ölkələrin baş prokurorlarının illik ümumi konfransının keçirilməsini təşkil etmək barədə razılığa gəldik. Hesab edirik ki, bu, çox mühüm əhəmiyyət kəsb edən məsələdir. Təbii ki, digər məsələlər də müzakirə olundu. Konkret cinayət işləri üzrə əməkdaşlıq, ekstradisiya məsələləri müzakirə edildi. Hesab edirəm ki, bizim faydalı əməkdaşlığımız həm dövlətlərimizin, həm xalqlarımızın və həm də hər iki dövlətin prokurorluqlarının mənafeyinə xidmət edir".



# Bəkir ŞAHİN: "Azərbaycanın və Türkiyənin Baş prokurorluqları arasında əməkdaşlıq bundan sonra da davam etdiriləcək"

Bildiyiniz kimi, Azərbaycanın Baş prokuroru Kamran Əliyev Beynəlxalq Prokurorlar Assosiasiyasının sədr müavinidir. Dünya ölkələri Baş prokurorlarının iştirakı ilə 2023-cü ildə Ankarada beynəlxalq tədbirin keçirilməsinə dair layihəmiz var.

Bunu həyata keçirmək üçün Baş prokuror Kamran Əliyev əlindən gələni edəcək, biz də dəstək verəcəyik. 2023-cü il Türkiyə Respublikasının quruluşunun yüzüncü ildönümüdür.

Bu sözləri Türkiyə Ali Məhkəməsinin Baş prokuroru Bəkir Şahin AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində deyib.

Azərbaycan Prokurorluğunun əməkdaşlarının Türkiyədə təcrübə keçdiklərini vurğulayan Bəkir Şahin qeyd edib:



"Akademiyamızda Azərbaycandan gələn prokurorluq əməkdaşları təcrübə keçirlər. Həmin əməkdaşların bilik və təcrübələrinin artırılması məqsədilə onlar Türkiyə Ali Məhkəməsinin Baş Prokurorluğunda da təcrübə prosesi keçəcəklər. Bu istiqamətdə əməkdaşlığımız bundan sonra da davam etdiriləcək".

# "Baku" jurnalı: Xoşbəxtliyin Bakı formulu və daha nələr...

Xoşbəxt olmaq üçün cəmi üç şey lazımdır, amma onlar mütənasib olmalıdır: iş, sevgi və ünsiyyət.

"Baku" jurnalının baş redaktoru Leyla Əliyeva bu populyar nəşrin son nömrəsində dərc edilmiş məqaləsində bizim böyük həmvətənimiz, Nobel mükafatı laureatı Lev Landaunun çıxardığı "xoşbəxtlik formulu" barədə söhbət açır.

Leyla Əliyeva yazır: "Xoşbəxtliyin bu formulu olduqca bakısayağıdır. Müəllif Azərbaycan paytaxtının özünəməxsus ab-havasının sirlərini açaraq göstərir ki, Bakı sakinləri həmişə tolerantlıq, ənənələrə qayğıkeş münasibət, əməksevərlik və əlbəttə, bənzəri olmayan qonaqpərvərlik kimi xüsusiyyətlərlə fərqləniblər".

AZƏRTAC xəbər verir ki, "Baku" jurnalı ənənələrə sadiq qalaraq həm konkret hadisələr barədə informasiya, həm də Azərbaycanın mədəniyyəti, onun tarixi barədə məqalələr, ölkəmizi məşhurlaşdıran tanınmış şəxsiyyətlərlə müsahibələr dərc edir. "Baku" jurnalının 2021-ci il yanvar-fevral nömrəsini həqiqətən tarixi nömrə adlandırmaq olar. Çünki jurnalın bu nömrəsi Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı erməni işğalından azad etməsi münasibətilə keçən il dekabr ayında Bakıda keçirilmiş Zəfər paradı barədə reportajla açılır. Azərbaycan xalqı bu günü illər boyu gözləyirdi. Müzəffər Azərbaycan Ordusunun paytaxtın Azadlıq meydanında həmin paradda qürurla addımlayan əsgərlərinin, səmada üçrəngli Azərbaycan bayrağının əksini yaradan qırıcı təyyarələrin, Vətən müharibəsi qəhrəmanlarını bayraqlarla qarşılayan Bakı sakinlərinin fotolarında bizim üçün unudulmaz məqamlar əks etdirir.




Dünya şöhrətli fotoqraf Reza Deqati ilə söhbət "Əlvida, silah" başlığı altında dərc edilib. Qarabağın öz qanuni sahibinə qaytarılmasını, viran edilmiş binaları, ermənilər tərəfindən təhqir olunmuş məbədləri tarix üçün sənədləşdirmiş fotoqraf öz arzularını bölüşərək deyib: "İnanıram ki, Azərbaycan yaranmış şansdan istifadə edəcək və Qafqazda sülhə nail olacaq. Mən müxtəlif insanlarla, o cümlədən yüksəkvəzifəli şəxslərlə söhbət etmişəm, onlar Qarabağı yer üzünün cənnətinə çevirməyə hazırlaşırlar. Bu, həm də mənim arzumdur, müharibələri və dağıntıları öz gözü ilə görmüş hər kəsin arzusudur".

Reza Deqatinin müsahibəsi onun işğaldan azad edilmiş Azərbaycan torpaqlarına səfərlərinin gedişində çəkilmiş çoxsaylı fotoşəkillərlə illüstrasiya edilib.

"Baku" jurnalının bu nömrəsində "Müsahibə" rubrikasının qonağı TASS agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusman olub. M.Qusman 2020-ci ildə iki yubileyi - anadan olmasının 70 illiyini və məşhur "Hakimiyyət formulu" verilişinin 20 illiyini qeyd edib. Tanınmış jurnalist bu verilişin necə yaranması, verilişin qəhrəmanları olmuş məşhur şəxsiyyətlər, pandemiya şəraitində jurnalist işinin çətinlikləri barədə söhbət açır və Bakıya sevgisini etiraf edir: "Planetimizdə heç bir yeri Bakı ilə müqayisə etmək olmaz".

Oxucular "Azərbaycan markaları" adlı xüsusi layihədən, İsmayıllı rayonunun İvanovka kəndində yaşayan molokanlar haqqında məqalədən çoxlu maraqlı faktlar öyrənəcək, kulinariya həvəskarları isə "Yemək. Sirlər" rubrikasında "albuxara" gavalı qurusu barədə məlumat alacaq, ondan istifadə olunan Azərbaycan yeməklərinin reseptləri ilə tanış olacaqlar.

# Türkiyənin milli müdafiə naziri Hulusi Akar Azərbaycanın ucqar dağ kəndində yaşayan şəhid ailəsinə məktub göndərib

Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın Azərbaycan Ordusunun Vətən müharibəsində hərbi əməliyyatlar zamanı döyüş tapşırığını yerinə yetirərkən şəhid olmuş hərbi qulluqçusu, baş leytenant Valeh İsbat oğlu Məmiyevin ailəsinə göndərdiyi məktub ünvanına çatdırılıb.

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığı ilə nazirliyin əməkdaşı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani Valeh Məmiyevin doğulub boya-başa çatdığı Yardımlı rayonunun Kürəkçi kəndində şəhidin ailə üzvləri ilə görüşərək məktubu çatdırıb. Şəhidin məzarı ziyarət edilərək önünə Müdafiə Nazirliyi adından çələng qoyulub.

Şəhidin ailə üzvləri qonaqları səmimiyyətlə qarşılayıblar. İgid tankçının şəxsi əşyaları, təltifləri və ona təqdim edilmiş qiymətli hədiyyələrin saxlandığı xatirə guşəsi önündə şəhidin qısa, ancaq şərəfli ömür yolu bir daha xatırlanıb, Vətənə belə igid oğul tərbiyə etdiklərinə görə valideynlərə minnətdarlıq edilib.

Məlumat verilib ki, zabitlik peşəsinə yiyələnmək Valehin uşaqlıq arzusu olub. Valideynləri də onun bu seçimi ilə razılaşıblar. O, 13-14 yaşlarından əsgər çəkməsi geyinərək Cəmşid Naxçıvanski adına Hərbi Liseydə böyük orduya gedən yollarda ilk addımlarını atıb. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nda peşəkarlığını daha da artırıb.

Əfsanəvi sərkərdə, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanovun layiqli davamçısı olacağına and içən gənc leytenant Azərbaycan Ordusunda tank taqımının və bölüyünün komandiri vəzifələrində xidmət edib, baş leytenant hərbi rütbəsinə yüksəlib. "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunub, komandanlıq tərəfindən dəfələrlə fəxri fərman, qiymətli hədiyyə ilə mükafatlandırılıb.

Şəhidin ailə üzvlərini Müdafiə Nazirliyinin rəhbərliyi adından salamlayan polkovnik A.Qurbani ötən il dekabrın 30-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Azərbaycan-Türkiyə qardaşlığı əbədidir, sarsılmazdır" adlı tədbir barədə danışaraq qeyd edib ki, həmin tədbirdə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi ilə yanaşı, ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti də iştirak edib. Türkiyə-Azərbaycan birgə təlimlərinə həsr olunmuş fotosərgidə böyük Azərbaycan sevdalısı nazir Hulusi Akarın baş leytenant Valeh Məmiyevə qiymətli hədiyyə təqdim etdiyi və tankçı zabitə xeyir-dua verdiyi anların təsvir olunduğu tablo qarşısında onun Vətən müharibəsində Qubadlı rayonunun işğaldan azad edilməsi uğrunda döyüşdə "Mən xoşbəxt zabitəm ki, cənab Hulusi Akara verdiyim sözü tutdum. Təki Vətən sağ olsun!" deyərək gözlərini yumması və həkimlərin səylərinə baxmayaraq, üç gün sonra şəhid olması xəbəri Türkiyənin milli müdafiə nazirini, eləcə də sərgi izləyicilərini son dərəcə kədərləndirib. Türkiyəyə qayıtdıqdan sonra Hulusi Akar Məmiyevlər ailəsinə məktub ünvanlayıb. Məktubda deyilir:

*"Şəhid baş leytenant Valeh Məmiyevin hörmətli ailəsinə.*

*Əziz, qiymətli Məmiyevlər ailəsi.*

*Şanlı Azərbaycan Ordusunun Ermənistanın işğalı altındakı torpaqları azad etdiyi 44 günlük dastana dönən mübarizədə ağır yaralanan baş leytenant Valeh Məmiyevin şəhid olması bizləri dərindən üzdü.*

*Baş leytenant Valeh Vətən torpağının işğaldan qurtarılacağına dair verdiyi sözü tutmuş və Qubadlı rayonuna bağlı yaşayış məntəqələrinin qurtarılmasından sonra şəhadət məqamına ucalmışdır.*



*Şəhid və qazilərimizin cəsarət, qəhrəmanlıq və fədakarlıqları əsla unudulmayacaq. Onların əziz xatirələri sonsuza qədər qəlbimizdə yaşayacaq.*

*"Bir millət, iki dövlət" olan Türkiyə və Azərbaycanın kədəri də, sevinci də birdir. Sizlərin sevinci sevincimiz, kədəri kədərimizdir. Türkiyə bütün imkanları ilə sonunadək Azərbaycan türkü qardaşlarımızın yanında olmaqda davam edəcək.*

*Şəxsən və Milli Müdafiə Nazirliyinin əməkdaşları adından acınızı ürəkdən paylaşır, əziz şəhidlərimizə Allahdan rəhmət, siz dəyərli ailəsinə səbir diləyir, başsağlığı verirəm.*

*Münasib bir vaxtda əziz şəhidimizin hörmətli ailəsi olan Sizləri Türkiyədə qarşılamaqdan məmnun olaram.*

*Salam və ehtiramlarımla, Hulusi Akar".*

Şəhidin qardaşı, qəbul imtahanlarında 695 bal toplayaraq Prezident təqaüdünə layiq görülmüş və Azərbaycan Dövlət Neft Akademiyasını fərqlənmə diplomu ilə bitirdikdən sonra Amerikanın nüfuzlu informasiya və texnologiya şirkətlərindən birində proqramlaşdırma üzrə komanda rəhbəri vəzifəsində çalışan Vüsal Məmiyev qardaşı barədə xatirələrini bölüşərək deyib: "Ötən ilin avqustunda Azərbaycan-Türkiyə quru qoşunları və hərbi hava qüvvələrinin birgə döyüş atışlı taktiki və taktiki-uçuş təlimlərindən sonra rayona qısamüddətli məzuniyyətə gəlmişdi. Həmin gün mən də kənddə idim. Birgə taktiki təlimlərdə hər iki ölkənin ordularının hərbi qulluqçularının və bölmələrinin yüksək peşəkarlıq və bacarıq nümayiş etdirdiklərindən, işğal altındakı torpaqlarımızı düşmən tapdağından azad etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarından və bu əmri səbirsizliklə gözlədiklərindən həvəslə danışırdı. Türkiyənin milli müdafiə naziri Hulusi Akar ilə görüş onun həyatında unudulmaz iz buraxmışdı".

V.Məmiyev bildirib ki, Azərbaycan-Türkiyə birgə təlimlərində "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə qardaş Türkiyənin milli müdafiə nazirinin Valehi qiymətli hədiyyə ilə şəxsən mükafatlandırması və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda mübarizədə ona uğurlar arzulaması Valehin döyüş ruhunu, qələbəyə inamını daha da yüksəltmişdi. O, Hulusi Akara söz vermişdi ki, Türkiyə hərbçiləri ilə birgə təlimlərdə qazandıqları uğurları döyüş meydanında təkrarlayacaq və bu yüksək etimadı Vətənə sədaqətli xidməti ilə doğruldacaq, son damla qanınadək vuruşaraq düşmən üzərində qələbə çalacaq. Qardaşım sözünə, vədinə əməl etdi. Həm Türkiyə, həm də Azərbaycan xalqı qarşısında başımızı ucaltdı.

Valehin ilk müəllimlərindən olan İqbal Babayev vaxtilə dərs dediyi sevimli şagirdi haqqında fəxrlə danışaraq deyib: "O nəinki ailəsinin, kəndimizin, eləcə də Azərbaycan Ordusunun, xalqımızın adını yüksəklərə qaldıran igidlərimizdəndir. Valeh kimi oğulların sayəsində 30 illik torpaq həsrətinə son qoyuldu. Bu gün hər birimizin başı ucadır. Biz qalib dövlətin vətəndaşları olmağımızla fəxr edirik. Nə qədər ki, Azərbaycan var, qədirbilən xalqımız var, tarixi Qələbəni bizə bəxş edən şəhidlərimizin xatirəsi əbədi yaşayacaq".

Ziyalı Fərhad Məmiyev digər sahələrlə yanaşı, kənd cavanlarının hərbi peşələrə də böyük maraq göstərdiklərini, hazırda Azərbaycan Ordusunda ucqar dağ kəndindən 100-ə yaxın hərbi qulluqçunun xidmət etdiyini, onlardan 6-sının şəhid olduğunu, mayor Elçin Mansurovun ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görüldüyünü nəzərə çatdırıb.

Şəhidlərin xatirəsinin əziz tutulduğu, onların ailəsinə dövlət səviyyəsində diqqət və qayğı göstərildiyi barədə danışan Yardımlı Rayon İcra Hakimiyyəti başçısının Kürəkçi kənd inzibati-ərazi üzrə nümayəndəsi Ruslan Əkbərov bildirib ki, Məmiyevlər ailəsi də həmişə dövlətin və Müdafiə Nazirliyinin diqqət mərkəzində olub, bundan sonra da daim diqqətdə saxlanılacağına əminik. Baş leytenant Valeh Məmiyevin respublikamızın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak edərək hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", Cəbrayıl və Qubadlı rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə "Cəbrayılın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilməsi döyüşçünün qəhrəmanlığına verilən ən yüksək qiymətdir.

Məzahir Eyvazov qardaş Türkiyənin milli müdafiə naziri hörmətli Hulusi Akara şəhid ailəsinə göstərdiyi diqqətə görə kənd sakinləri adından minnətdarlığını bildirib.

Türkiyənin milli müdafiə nazirinin məktubunu ehtiram hissi ilə qəbul edən şəhidin atası İsbat Məmiyev deyib: "Yeni ilin ilk günlərində hörmətli Hulusi Akar telefonla zəng edərək ailəmizin hər bir üzvü ilə ayrılıqda danışdı. Kədərimizə, acımıza şərik oldu, bizə təsəlli verdi, yalnız olmadığımızı dedi. Oğlumuza və bütün şəhidlərimizə Allahdan rəhmət dilədi. İndicə aldığımız bu məktub da ailəmiz üçün böyük təsəllidir. Hörmətli Hulusi Akara bundan sonra da "Bir millət, iki dövlət" arasında qardaşlığın, dostluğun və hərbi əməkdaşlığın möhkəmlənməsində uğurlar arzulayır, dəvətini məmnuniyyətlə qəbul edirik".

Qardaş Türkiyənin milli müdafiə nazirinin Azərbaycanın ucqar dağ kəndində yaşayan şəhid ailəsinə göndərdiyi səmimiyyətlə dolu məktub bütün kənd sakinlərinin böyük sevgisi ilə qarşılanıb. Məmiyevlər ailəsi nazir Hulusi Akara cavab məktubu ünvanlayıblar.

# Milli Məclis komitələrinin birgə iclası keçirilib



Fevralın 18-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə onlayn iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov iclası açaraq gündəliyə bir məsələ - "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsinin (birinci oxunuş) daxil edildiyini bildirib.

Sadiq Qurbanov və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məsələ barədə məlumat veriblər. Diqqətə çatdırılıb ki, təklif olunan dəyişikliklər sahibkarlıq sahələrinə xidmət edən inhisarçı dövlət şirkətlərinin fəaliyyətini tənzimləyəcək, bu sahədə dövlət nəzarətini gücləndirəcək və sahibkarlıq subyektlərinin fəaliyyətinə qanunsuz müdaxilələri aradan qaldıracaq. Qeyd olunub ki, bu günlərdə Milli Məclisdə sahibkarlıq sahəsində yoxlamaların dayandırılması müddətinin uzadılması barədə məsələ müzakirə edilib. İndi müzakirə olunan dəyişiklikdə nəzərdə tutulur ki, su, qaz, elektrik sayğaclarına baxılması və onların oxunması prosesi yoxlama hesab edilməsin. Sayğaclara qanunsuz müdaxilə aşkar edildikdə isə onun qarşısının alınması mexanizmi dövlət reyestrindən avtomatik cavab almaqla həyata keçirilərək asanlaşdırılır.

Qanun layihəsi barədə danışan deputatlar Məşhur Məmmədov, Elnur Allahverdiyev, Asim Mollazadə, Aydın Hüseynov, İqbal Məmmədov, Rüfət Quliyev, Nəsib Məhəməliyev su, qaz, elektrik enerjisi satışı sahələrində vəziyyətlə bağlı fikirlərini bildiriblər, bu sahələrin idarəetməyə verilməsi, infrastrukturun yenilənməsi, sağlamlaşdırma işinin həyata keçirilməsi barədə qeyd və təkliflərini səsləndiriblər.

İclasda Tahir Mirkişili səsləndirilən fikirlərə münasibət bildirib. Komitə sədri enerji satışı sahəsində dünya təcrübəsi, dünya ölkələrində əhalinin bu xidmətlərlə bağlı borcunu ödəmə üsulları, sahibkarların hüquqlarının qorunması barədə fikirlərini diqqətə çatdırıb. Eyni zamanda təklif edilən qanun layihəsinin bu sahədə müsbət dəyişikliklərə səbəb olacağını deputatların diqqətinə çatdırıb. Məsələ birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "İşsizlikdən sığorta haqqında", "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini müzakirə edərək Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə ediblər.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri isə "Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənməsi və mənimsənilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" qanun layihəsini müzakirə ediblər.

Sadiq Qurbanov bildirib ki, bu bizim uzun illər gözlədiyimiz bir anlaşma idi. 44 günlük müharibədən sonra belə bir sənədin imzalanması Azərbaycanın növbəti uğurudur. Yəqin ki, saziş imzalananda daha geniş formatda təqdimat olacaqdır.

Daha sonra məsələ səsə qoyularaq Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Onlayn iclasda Milli Məclisin deputatları Ziyad Səmədzadə, Ağalar Vəliyev, Əli Məsimli, Sadiq Qurbanov, Əliabbas Salahzadə, Məzahir Əfəndiyev, İltizam Yusifov, Fatma Yıldırım, Mahir Abbaszadə və Naqif Həmzəyev iştirak ediblər.

# Biz birlikdə güclüyük!




## Uzaqgörən lider və tarixi missiya

Əvvəli 1-ci səh.

Hələ ötən ilin ilk aylarında, bütün dünyanın getdikcə güclənən pandemiya dalğası qarşısında son dərəcə çətin vəziyyətdə qaldığı vaxtlarda Prezident İlham Əliyevin BMT Baş Assambleyasının COVID-19-la bağlı xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etməsi və hadisələrin sonrakı gedişi də bunun bir örnəyi oldu. Xatırladaq ki, Azərbaycan pandemiyaya qarşı birgə mübarizənin vacibliyini qlobal səviyyədə aktuallaşdıran ilk ölkə kimi hələ ötən ilin aprelində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının dövlət və hökumət başçılarının fövqəladə Zirvə görüşünü təşkil etmişdi. Bu, COVID-19 mövzusuna həsr olunmuş ilk belə beynəlxalq tədbir idi. Ardınca mayın 4-də Prezident İlham Əliyevin rəhbərlik etdiyi Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 probleminə dair videokonfransı oldu. Qoşulmama Hərəkatı ölkələri adından BMT-nin Baş katibi Antonio Quterreşə qurumun Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi ilə bağlı müraciət ünvanlandı. Bu təşəbbüs BMT-nin 130-dan çox üzv dövləti tərəfindən dəstəkləndi. Təşəbbüsün belə yüksək dəstək qazanması bir tərəfdən onun müəllifinin - cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti və Qoşulmama Hərəkatının sədri kimi yüksək nüfuzunun göstəricisi idisə, digər tərəfdən də təklifin aktuallığından, faydalarından irəli gəlirdi.

### Məsuliyyətli ölkə

Maraqlıdır, Azərbaycan Prezidenti belə bir toplantını niyə vacib sayırdı? COVID-19 mövzusunun BMT-nin Baş Assambleyası səviyyəsində müzakirəsini aktual və faydalı edən nə idi? İyulun 6-da Bakının Xətai rayonunda koronaviruslu xəstələrin müalicəsi üçün yaradılmış növbəti modul tipli xəstəxananın açılışından sonra yerli televiziyalardan bir neçəsinə müsahibə verən ölkə başçısı bu suallara təfsilatlı şəkildə aydınlıq gətirdi. Bildirdi ki, bu təşəbbüs koronavirus pandemiyasına qarşı mübarizə işində vahid yanaşmanın tətbiq olunması, ölkələrin özlərinə qapanmaması, inkişaf etmiş dövlətlərin ağır vəziyyətdə olan ölkələrə kömək göstərməsi niyyətindən irəli gəlir. “Hələ bilinmir ki, peyvənd icad olunandan sonra nələr baş verəcək? İndi dərmanlar, cihazlar uğrunda mübarizə gedir” deyən Azərbaycan Prezidenti əlavə etdi: - “Biz özümüz bu vəziyyətlə üzləşmişdik. Biz sifariş edilmiş və pulla alınmış bəzi cihazları ölkəmizə gətirə bilməmişik. Çünki imkan vermədilər. Ona görə peyvənd icad ediləndən sonra hansı vəziyyət olacaq, bunu heç kim bilmir. Birincisi, bu peyvənd nə dərəcədə səmərəli olacaq? İndi testdən keçir. Sonra kasıb ölkələrin ona əli çatacaq, yoxsa yox? O, pullamı satılacaq, yaxud da ki, Ümumdünya Səhiyyə Təşkilatı onu paylayacaq? Yoxsa ki, zəngin ölkələr bundan istifadə edib öz əhalisinin canını qurtaracaq, amma kasıb ölkələrdəki insanlar öləcək? Bu, dözülməzdir. Bütün bu məsələlər vahid bir yanaşma tələb edir. Hətta ölkələr BMT Baş Assambleyasında vahid bir fikrə gəlməsələr belə biz bu məsələni qaldırmalıyıq. Biz dünya birliyinin məsuliyyətli ölkəsi kimi bu məsələni qaldırırıq”.

### Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək

Qəribə və acı təəssüf doğuran hal budur ki, o zaman bu təklifin əleyhinə cəmi bir ölkə səs vermişdi. O da belə bir təşəbbüsün reallaşmasına ən çox ehtiyacı olan acyalavac Ermənistan idi. Bu da Ermənistan rəhbərlərinin xəstə xislətindən, onların xalqımıza olan nifrət hissinin bütün bəşəri dəyərlərdən üstün tutulmasından irəli gəlirdi. Tarixi təsadüfsə elə gətirdi ki, Azərbaycan Prezidenti İlham Əliyev ordumuzun gücü ilə Ermənistan cəmiyyətini yeni bir reallıq qarşısında qoydu. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı parlaq Zəfər, qələbənin aynasında bütün dünya üçün gün işığına çıxan aydın həqiqətlər, Ermənistanda yaranan xaos xəstə düşüncənin illərlə bu ölkəni necə zəlil vəziyyətə gətirdiyini göstərdi. İşğalçı ölkə seçim qarşısında qaldı. Bundan sonra Ermənistanın özünütəcrid yolunu davam etdirərək məhv olmağı, yoxsa işğalçı niyyətlərdən, zəhərli fikirlərdən əl çəkərək qonşularla normal münasibətlər qurub regionun bir parçası kimi inkişaf etməsi öz seçimindən asılı olacaq.

BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyası dekabrın 3-də keçirildi. Sessiyada Qoşulmama Hərəkatının sədri kimi bu quruma üzv olan ölkələr adından danışan Prezident İlham Əliyev çıxışı zamanı COVID-19-un insanların səhhəti üçün doğurduğu təhlükələrdən əlavə, onun ölkələr, cəmiyyətlər arasında üzə çıxardığı bir sıra problemlərə də diqqət yönəltdi. Bildirdi ki, pandemiya istər inkişaf etmiş, istərsə də inkişaf etməkdə olan ölkələrdə zəiflikləri və bərabərsizliyi aşkara çıxararaq onları daha da kəskinləşdirib. Habelə yoxsulluğu dərinləşdirərək ən həssas kateqoriyadan olan insanların vəziyyətini daha da ağırlaşdırıb. Bu xəstəlik ən yoxsul və zəif vəziyyətdə olan ölkələrə daha çox zərbə vurub. Cənab İlham Əliyev böhranın davam edən fəsadlarının böyük çətinliklə əldə olunmuş nailiyyətləri geri atacağı və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində tərəqqiyə mane olacağı ilə bağlı dərin narahatlıqları diqqətə çatdırdı: “Həmçinin narahatlıq hissi ilə onu da qeyd etmək istərdik ki, pandemiya ədalətli və bərabərhüquqlu dünya nizamına nail olmaq üçün mövcud fundamental problemlərin daha da artmasına səbəb olmuşdur. Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçirilmiş 18-ci Zirvə toplantısında da müzakirə edilmiş bu problemlər qlobal maliyyə və iqtisadi böhranın təsirləri, inkişaf etməkdə olan ölkələrin əksəriyyətində resurs qıtlığı və iqtisadi-sosial gerilik, qeyri-bərabər ticarət şərtləri və inkişaf etmiş ölkələrin kifayət qədər əməkdaşlıq etməməsi, onların bəziləri tərəfindən birtərəfli və məcburedici tədbirlərin tətbiqi, habelə gücdən istifadə və ya gücdən istifadə ilə hədələmə və digərlərindən ibarətdir”.

### Tarix sübuta yetirir

Azərbaycan Prezidenti Qoşulmama Hərəkatı adından bütün ölkələrin dərman, vaksin və tibbi avadanlığa münasib, maneəsiz və bərabər çıxışının əhəmiyyətini vurğuladı. Ümid etdiyini bildirdi ki, təhlükəsiz və təsirli vaksin tezliklə hazır olduqda onun hamı üçün münasib qiymətə paylanılması təmin ediləcək. “Biz bu prosesdə ÜST-ün əlaqələndirmə səylərini yüksək qiymətləndirir və vaksin hazır olduğu zaman təşkilatın insanların belə bir vaksinə bərabər çıxışının təmin edilməsində rolunun vacibliyini vurğulayırıq. ...Beynəlxalq ictimaiyyət yalnız birlik, çoxtərəfli əməkdaşlıq, həmrəylik və insan hüquqlarına hörmət əsasında COVID-19-un fəsadlarının aradan qaldırılması və indi yayılmaqda davam edən pandemiyadan xilas olmaq üçün strategiyalar hazırlaya bilər”.

Azərbaycan pandemiyanın ən kəskin dövrlərində xüsusilə ehtiyacı olan kasıb ölkələrə bacardığı yardımı göstərməklə də dünya birliyinin məsuliyyətli üzvü kimi bu birliyin, əməkdaşlığın, həmrəyliyin, insan hüquqlarına hörmətin parlaq nümunəsini yaratmışdı.

Budur, Azərbaycan Prezidentinin qeyd etdiyimiz tarixi təşəbbüsü irəli sürməsindən artıq bir ilə yaxın vaxt keçib. Effektivliyi özünü doğrultmuş peyvənd tapılıb. Bu hər nə qədər sevindirici olsa da, Prezident İlham Əliyevin belə bir mərhələ üçün hələ aylar əvvəl proqnozlaşdırdığı problemlər də peyvənd tapılandan sonra bir-bir özünü göstərməkdədir. Dünya üzrə vaksinasiya mərhələsinin başlanması müxtəlif ölkələr arasında gərginliklərin, ziddiyyətlərin əsasını qoyub. Avropa İttifaqı ilə Böyük Britaniya arasında yaranmış vaksin qalmaqalı beynəlxalq mediadan hamıya məlumdur. Avropa İttifaqının təmsilçiləri Böyük Britaniyanı istehsal etdiyi vaksinin qeyri-ədalətli bölgüsündə günahlandırırlar. Onların açıqlamalarına görə, Böyük Britaniya vətəndaşlarının 13 faizi artıq peyvəndi ala bilib. Ümumilikdə Avropa İttifaqı ölkələrinin vətəndaşlarının isə cəmi 2 faizinə vaksin çatıb. Proqnozlara görə, bu minvalla Böyük Britaniya öz əhalisinin 75 faizini iyul ayına qədər vaksinlə təmin edəcək. Avropa İttifaqı ölkələri isə belə bir nəticə üçün oktyabr ayına qədər gözləməli olacaq. Bu da hər gün insanların həyatlarını itirməsi deməkdir.

Prezident İlham Əliyev fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilmiş binasının açılışından sonra Azərbaycan televiziyasına müsahibəsi zamanı bu məqamları nəzərə alaraq əslində bütün bəşəriyyəti düşündürəcək haqlı sual verdi: “Əgər inkişaf etmiş ölkələr bu vaksinləri öz aralarında ədalətli bölə bilmirlərsə və qarşılıqlı ittihamlar irəli sürürlərsə, onda başqa ölkələr nə fikirləşməlidir? Kasıb ölkələr, inkişafda olan ölkələrin vətəndaşları, bəs onlara kim kömək göstərəcək? Bu haqda düşünülmür? Mən inkişaf etmiş bir çox ölkələrin liderlərindən bu günə qədər bu çağırışları eşitməmişəm. Ona görə biz Qoşulmama Hərəkatının sədri olaraq və öz bəyanatlarımıza sadiq qalaraq artıq dünya arenasında bu məsələni qaldırırıq. Mən sədrliyi öz üzərimə götürərkən demişdim ki, Azərbaycan beynəlxalq hüququ və ədaləti müdafiə edəcək, bütün üzv ölkələrin maraqlarını müdafiə edəcək və biz bunu edirik. Bu iki zirvə görüşünün və bir xüsusi sessiyanın keçirilməsi onu göstərir ki, biz özümüzü bu sahədə də məsuliyyətli ölkə kimi aparırıq və bundan sonra da öz səsimizi daim ucaldacağıq. Çünki istisna edilmir ki, bundan sonra vaksinlər uğrunda mübarizə daha da kəskinləşəcək və bu, çox faciəvi fəsadlara gətirib çıxara bilər”.

### Neomüstəmləkəçilik düşüncəsinə qarşı birgə mübarizə

Azərbaycan Prezidenti həmin müsahibəsində açıq mətbuata istinad edərək başqa maraqlı misallar da gətirdi. Hazırda inkişaf etmiş ölkələrin dünya əhalisinin 14 faizini təşkil etdiyini diqqətə çatdıraraq xatırlatdı ki, buna rəğmən inkişaf etmiş ölkələr bu günə qədər dünya vaksinlərinin artıq 53 faizini sifariş ediblər. Ədalətsizlik, qeyri-bərabərlik göz önündədir. Göründüyü kimi, başqa vaxt fundamental dəyərlərdən, haqq-ədalətdən danışan ölkələr bəşəriyyət üçün kritik anda bu dəyərləri bir kənara tullamaqdan utanc hissi keçirmirlər.

Prezident İlham Əliyevin diqqət yönəltdiyi başqa bir faktdan isə məlum oldu ki, Kanada artıq 154 milyon əhali üçün vaksinlər sifariş edib. Halbuki Kanadanın əhalisi cəmi 38 milyondur. “Yəni bu ölkə, bu ölkənin hökuməti, hansı ki, Vətən müharibəsi zamanı sırf ermənipərəst mövqe sərgiləyirdi, işğalçıları dəstəkləyirdi, bizim haqq işimizə kölgə salmaq istəyirdi və hətta “Bayrakdar” pilotsuz uçuş aparatlarının kameralarının Türkiyəyə ixrac edilməsi ilə bağlı əsassız embarqo qoymuşdu. Həmin bu ermənipərəst ölkə 154 milyon vaksin sifariş edir, onun pulunu verir, öz ölkə əhalisinin sayı 38 milyondur. Yəni dörd dəfə çox”, - dedi Azərbaycan Prezidenti. “Deməli, 120 milyona bu vaksin çatmayacaq. Onlar almayacaqlar, onlar xəstələnəcəklər, öləcəklər. Bunların vecinə deyil. Bunlar ancaq eqoist hisslərə qapılaraq öz maraqlarını təmin etmək istəyirlər. Belə olan halda hansı demokratiyadan söhbət gedə bilər? Hansı ədalətdən, mərhəmətdən, insan haqlarından söhbət gedə bilər? Deməli, kasıb ölkələrin insanlarının haqları tapdalanır, onların səhhəti, sağlamlığı risk altına düşür. Amma zəngin ölkələr öz maraqlarını artıqlaması ilə, o maraqların 4-5 mislini təmin etməklə, necə deyərlər, öz maraqlarını təmin edirlər”, - deyə dövlət başçısı bildirdi.

Prezident İlham Əliyev bu halların sadəcə xəstəliklə bağlı deyil, daha dərin köklərinin olduğunu və bu köklərin müstəmləkəçilik dövrünə apardığını vurğuladı. “Elə bil ki, biz neomüstəmləkəçilik dövrünü qeyri-rəsmi müşahidə edirik, yaxud da ki, elan edilməmiş müstəmləkəçilik, bunun başqa adı yoxdur. Belə olan halda bu ölkələrin mənəvi haqqı varmı kiməsə nəsə desin, kimisə nədəsə ittiham etsin? Bu, eqoizmdir, vicdansızlıqdır. Azərbaycan - Qoşulmama Hərəkatına sədrlik edən ölkə burada səssiz qalmır və qalmayacaq. Bu gün mən bu imkandan istifadə edərək Qoşulmama Hərəkatının üzvlərinə də çağırış edirəm ki, onlar da bizim səsimizə qoşulsunlar və biz bu məsələni beynəlxalq kürsülərdə, BMT kürsüsündə qaldırmalıyıq. Ümumdünya Səhiyyə Təşkilatına müraciət etməliyik, şirkətlərə müraciət etməliyik, zəngin ölkələrə müraciət etməliyik ki, bu ölkələr bu praktikadan əl çəksinlər. Bu, ədalətsizlikdir. Buna göz yummaq olmaz. Bunun üstünü örtmək olmaz. Bu barədə Azərbaycan BMT-dən sonra ikinci böyük təsisatın lideri kimi, öz sözünü bundan sonra da deyəcək”.

Bu, Azərbaycanın yeni tarixi missiyasıdır. Prezident İlham Əliyevin dünya miqyaslı lider kimi üzərinə götürdüyü yeni tarixi vəzifədir.

Azərbaycan Prezidenti qlobal səviyyədə ona inanan, dəstək verən həmfikirləri ilə birgə bu missiyanı da uğurla həyata keçirəcək, haqqın, ədalətin qələbəsinə nail olacaq.

***İradə ƏLİYEVA, “Azərbaycan”***

## Nuran ABDULLAYEV: “Peyvənd həm COVID-19-u keçirməyənlər, həm də keçirənlər üçün önəmlidir”

Peyvəndlərin tətbiqindən sonra elmi arenada ciddi müzakirə mövzularından biri də COVID-19 xəstəliyindən sağalanlara hansı dozada peyvəndin vurulması barədədir. Yəni, bu xəstəliyi ötən il keçirən insanlara peyvəndin birinci dəfə vurulan dozası kifayətdir, yoxsa mütləq ikinci dozası da vurulmalıdır? Bu sualın cavabının tapılması istiqamətində aparılan çox önəmli tədqiqatın nəticəsi artıq məlumdur və qarşıdan gələn günlərdə elmi ədəbiyyata daxil ediləcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Almaniya-Azərbaycan Radioloji və Neyroradioloji Cəmiyyətinin sədri, Köln Universiteti Klinikasının tibb elmləri doktoru, azərbaycanlı alim Nuran Abdullayev deyib.

Onun sözlərinə görə, aparılan tədqiqatın metodik hissəsi çox ciddi dəqiqliklə icra olunub. Belə ki, peyvəndin tətbiqindən öncə insanların COVID-19 xəstəliyini keçirib-keçirmədiklərini müəyyənləşdirmək üçün anticisimləri yoxlayıblar. Bundan sonra həm virusa daha əvvəl yoluxanlarda, həm də yoluxmayanlarda 4 gündən bir anticisimlərin miqdarına baxılıb. Beləliklə, çox önəmli nəticələr əldə olunub. Belə ki, ilk peyvənd dozasından əvvəl xəstəliyi keçirmiş insanlarda 5-8 gün sonra ciddi nəzərə çarpacaq qədər anticisimlərin çoxalmasına rast gəlinib ki, bu da onlarda güclü immunitetin yaranması deməkdir.

Əvvəllər xəstələnməyən insanlarda isə 9-12 günlük vaxt lazım olub ki, vurulan peyvəndin müəyyən effekti hiss olunsun. Tədqiqatın digər çox önəmli nəticəsi 24 günlük müşahidə zamanı rast gəlinib. Belə ki, peyvənd aldıqdan sonrakı bu zaman çərçivəsində xəstəliyi daha öncə keçirməyənlərdə anticisimlərin miqdarı xəstəliyi keçirən və peyvənd alan insanlarla müqayisədə az olub. Bu da bizə bir daha onu göstərir ki, peyvənd həm xəstəliyi keçirməyənlər, həm də keçirənlər üçün nə qədər önəmlidir. Tədqiqatda maraq doğuracaq və gələcəkdə peyvənd strategiyasında ciddi nəzərə alına biləcək daha bir nüans də aşkarlanıb. Belə ki, öncədən virusa yoluxmuş insanlara peyvəndin ikinci dozasının vurulmasından sonra onlarda yaranan anticisim miqdarında ciddi dəyişikliyə rast gəlinməyib.

Bu da o deməkdir ki, elmi tədqiqatla sübut edilir ki, xəstəlikdən sağalan insanlarda effektiv immunitetin yaranmasına peyvəndin təkcə bir dozası kifayət edə bilər və bu insanlara qısa müddət ərzində təkrar dozanın vurulmasının ciddi əhəmiyyəti yoxdur. Aparılan bu tədqiqat “Biontech” və “Moderna” peyvəndləri ilə aparılıb. Tədqiqatda xəstəliyi daha öncədən keçirənlərlə keçirməyənlərin peyvəndin ikinci dozasından sonrakı yan təsirləri də müqayisə edilib. Burada aydın olur ki, xəstəliyi keçirənlərin yüngül yan təsirləri xəstəliyi keçirməyənlərlə müqayisədə 5-6 dəfə çox olub. Amma bu yan təsirlər qorxulu reaksiyalar deyil, məsələn, yorğunluq, baş ağrısı, əzələ ağrısı, bəzən qızdırma və əzələ ağrıları.

Nəzərinizə çatdırım ki, bir ildən sonra fərqli dozalarda peyvənd alanlarda olan immunitet hansı səviyyədə olacağı barədə sual isə cavabsızdır, bu barədə tədqiqatlar davam edir.

## DSX-nin hərbi qulluqçularının və mülki əməkdaşlarının koronavirus əleyhinə vaksinasiyasına başlanıb

Nazirlər Kabinetinin 2021-ci il 16 yanvar tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında COVID-19 xəstəliyi əleyhinə 2021-2022-ci illər üçün Vaksinasiya Strategiyası”nın birinci mərhələsinə uyğun olaraq, Dövlət Sərhəd Xidməti (DSX) əməkdaşlarının da vaksinasiya prosesinə start verilib.

AZƏRTAC xəbər verir ki, DSX-nin Bakıda xidmət aparan əməkdaşları fevralın 18-dən etibarən peyvəndləməyə cəlb olunublar. Vaksinasiya DSX-nın Hərbi Hospitalında həyata keçirilir.

Dövlət Sərhəd Xidmətinin (DSX) Tibb Xidmətinin rəisi, polkovnik Kənan Yusifzadə jurnalistlərə açıqlamasında bildirib ki, vaksinasiya mütəşəkkil qaydada həyata keçirilir və bu zaman strategiyanın əsas prinsiplərindən olan könüllülük prinsipi əsas götürülür. Vaksinasiya üçün müraciət edən əməkdaş öncə həkim tərəfindən müayinə olunur. Hər hansı əks-göstəriş halı olmazsa, həmin şəxsə vaksin vurulur. Birinci dozadan 28 gün sonra həmin əməkdaşa ikinci doza vurulacaq. Vaksinasiya strategiyasında göstərildiyi kimi, son altı ay ərzində koronavirusa yoluxanların, onkoloji xəstəliklərdən, o cümlədən yüksək qan təzyiqindən əziyyət çəkənlərin və dərman preparatlarına qarşı allergiyası olanların peyvəndlənməsi məsləhət görülmür.

K.Yusifzadə qeyd edib ki, qaydalara əsasən, ilk növbədə tibb heyəti vaksinasiya olunur. Çünki onlar risk qrupuna daxildirlər. Hərbi hissələrdə olan tibb məntəqələrinin üzvləri - orada çalışan həkimlər, orta kiçik tibbi heyət vaksinasiya ediliblər. İkinci mərhələdə yaşı 65 və daha çox olan şəxslər peyvənd ediləcəklər. Amma həqiqi hərbi xidmətdə bu yaşda, demək olar ki, heç kim yoxdur. Təqaüddə olanlar və onların ailə üzvləri vaksinasiya ediliblər. İndi isə yaşı 50 və daha çox olan şəxslərin peyvəndlənməsinə başlanıb. Təlimata uyğun olaraq, daha sonra yaşı 50-dən aşağı olan şəxslərin vaksinasiyasına başlanılacaq”.

## Azərbaycanda koronavirusdan 155 nəfər sağalıb, 145 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 155 nəfər müalicə olunaraq sağalıb, 145 yeni yoluxma faktı qeydə alınıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib.

İndiyədək ölkəmizdə 232 min 636 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 227 min 271 nəfər müalicə olunaraq sağalıb, 3190 nəfər vəfat edib. Aktiv xəstə sayı 2175 nəfərdir.

Ötən müddət ərzində 2 milyon 528 min 610 test aparılıb. Dünənki test sayı isə 7216-dır.



## Qusarda 65 yaşdan yuxarı 500-ə yaxın vətəndaş peyvənd olunub

Qusar Rayon Mərkəzi Xəstəxanasında indiyə kimi 65 yaşdan yuxarı 500-ə yaxın vətəndaş peyvənd olunub.

Xəstəxananın şöbə müdiri Natəvan Butayeva AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, fevralın 8-dən etibarən COVID-19 infeksiyasına qarşı vaksinasiyanın növbəti mərhələsinə başlanılıb. Bu mərhələdə 65 yaşdan yuxarı vətəndaşlar peyvənd olunur. Xəstəxanada yaradılan vaksin otaqlarında TƏBİB-in təlimatlarına uyğun zəruri şərait yaradılıb.

İlkin mərhələdə könüllülük əsasında 409 tibb işçisinə peyvəndin birinci dozası vurulub.

Natəvan Butayeva bildirib ki, təhlükəsizliyinə və effektivliyinə görə seçilən “CoronaVac” vaksini ilkin mərhələdə risk qrupuna daxil olan əhaliyə - səhiyyə işçilərinə, müəllimlərə, hüquq mühafizə orqanlarının əməkdaşlarına və yaşlı sakinlərə könüllülük əsasında vurulur. Vaksin immuniteti gücləndirmək yolu ilə COVID-19 infeksiyasından qoruyur, virusun ötürülməsini məhdudlaşdırır, ölüm halının qarşısını alır.

Xəstəxanalarda yarana biləcək sıxlığın qarşısını almaq məqsədilə qeydiyyat prosesi randevu.its.gov.az saytında onlayn keçirilir. Onlayn qeydiyyatdan keçə bilməyənlər isə birbaşa poliklinikalara müraciət edə bilərlər.

# "Zəfər salnaməsi"

Yeni Azərbaycan Partiyası (YAP) tərəfindən Azərbaycanın 44 günlük Vətən müharibəsində şanlı Qələbəsindən bəhs edən "Zəfər salnaməsi" kitabı nəşr olunub. Bu barədə AZƏRTAC-a YAP-ın Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, kitabda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın diplomatiya və informasiya cəbhələrində qətiyyətli mübarizə aparması, şanlı Ordumuzun 44 günlük Vətən müharibəsi zamanı xilaskarlıq missiyasını şərəflə yerinə yetirməsi nəticəsində tarixi ədalətin bərpa olunması və digər mühüm məsələlər əksini tapıb.

Azərbaycanın Vətən müharibəsi zamanı möhtəşəm Qələbə qazanması, uzun müddətdir Ermənistanın işğalı altında qalmış torpaqlarımızın azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa olunması, heç şübhəsiz, xalqımızın çoxəsrlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Qüdrətli Azərbaycan Ordusunun 44 günlük Qələbə yürüşü nəticəsində yazılan şanlı qəhrəmanlıq dastanı unudulmaz Zəfər salnaməsi olmaqla yanaşı, dünya hərb tarixinə düşən nadir nümunədir. Əlbəttə, ölkəmizin bu tarixi nailiyyəti təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir.

O da xüsusi olaraq vurğulanmalıdır ki, Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevdir. Dövlət başçısı hərb meydanında müzəffər sərkərdə, diplomatik cəbhədə mahir strateq nümunəsi ortaya qoymaqla yanaşı, informasiya müharibəsində Azərbaycanın haqq-ədalət səsi oldu, qətiyyətlə və cəsarətlə bütün təzyiqləri dəf etdi, xalqın dəstəyindən güc alan prinsipial Lider kimi mübarizlik rəmzinə çevrildi. Prezident İlham Əliyev ötən müddət ərzində hücum diplomatiyası həyata keçirməklə, müxtəlif beynəlxalq kürsülərdən tarixi həqiqətləri, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə əlaqədar vacib hüquqi və siyasi məsələləri diqqətə çatdırmaqla, dünya miqyasında ictimai rəyin Azərbaycanın lehinə dəyişməsini təmin etdi. Qeyd edilməsi vacib olan ən mühüm məsələlərdən biri budur ki, Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı ardıcıl uğurlarına paralel olaraq, dövlətimizin başçısı dünyanın nüfuzlu nəşrlərinə müsahibələri, xalqa müraciətləri zamanı bütün reallıqları dünya ictimaiyyətinin diqqətinə çatdırdı, erməni yalanlarını ifşa etdi, anti-Azərbaycan dairələrin qarayaxma kampaniyasını iflasa uğratdı. Bunun nəticəsidir ki, beynəlxalq mediada Azərbaycanın haqlı, ədalətli mövqeyini əks etdirən çoxlu sayda məlumatlar, təhlil xarakterli materiallar tirajlandı, müxtəlif süjetlər yayımlandı. Bu isə informasiya müharibəsində Azərbaycanın mütləq üstünlüyünü təmin edən mühüm amil oldu.




Bu gün də bəhs olunan məsələləri özündə ehtiva edən materiallar nəşr olunur, yerli və beynəlxalq auditoriyanın - geniş ictimaiyyətin diqqətinə təqdim edilir. Yeri gəlmişkən, Yeni Azərbaycan Partiyası tərəfindən bu günlərdə nəşr olunan "Zəfər salnaməsi" adlı kitabda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə diplomatiya və informasiya cəbhələrində aparılan uğurlu və qətiyyətli mübarizə, Azərbaycan Ordusunun 44 günlük müharibə zamanı döyüş meydanında öz sözünü deməsi və xilaskarlıq missiyasını şərəflə yerinə yetirməsi ilə əlaqədar məsələlər öz əksini tapıb.

"Şərq-Qərb" mətbəəsində işıq üzü görən 536 səhifəlik nəşrdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycan həqiqətləri, müharibə reallıqları ilə bağlı dünyanın aparıcı televiziya kanallarına, informasiya agentliklərinə və qəzetlərinə verdiyi müsahibələr, Türkiyənin, eləcə də müxtəlif ölkələrin hökumət və dövlət başçıları ilə görüşləri zamanı çıxışları, Azərbaycan xalqına müraciətləri, xüsusilə də Şuşanın işğaldan azad olunması ilə əlaqədar Şəhidlər xiyabanından xalqımıza səslənməsi öz əksini tapıb. Ən əsası, kitabda müasir, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur!" fikirlərinin ardınca Müzəffər Ali Baş Komandan İlham Əliyevin 44 günlük Vətən müharibəsi dövründə xalqa müraciətlərində yer alan, bu gün də fəxrlə ifadə etdiyimiz "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!" sözlərinə yer verilib.

Yeri gəlmişkən, nəşrdə ilk olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçidə "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında çıxışının yer alması müstəsna əhəmiyyətə malikdir. O mənada ki, Vətən müharibəsində əsas şüara çevrilən "Qarabağ Azərbaycandır və nida işarəsi" çağırışı məhz bu sessiyada Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və cəsarətlə bəyan edilmişdi.

Diqqətçəkən məqamlardan biri Prezident İlham Əliyevin bəzi nüfuzlu nəşrlərin, informasiya agentliklərinin və televiziya kanallarının jurnalistlərinin bəzən qərəzdən, bəzən isə məlumatsızlıqdan irəli gələn qeyri-adekvat suallarını səbrlə, təmkinlə, diplomatik tərzdə cavablandırması, bu müsahibələri ilə həm işğalçı Ermənistana, həm də dünyaya tarix, hüquq və qürur dərsi keçməsi oldu. Məhz bu mühüm məqamlar da ətraflı şəkildə "Zəfər salnaməsi"ndə yer alıb.

Nəşr oxuculara həmçinin dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşünün mühüm məqamlarını çatdırıb. Həmin görüşdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin "Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq" sözləri 44 günlük Vətən müharibəsində Azərbaycanın unudulmaz tarixi zəfərini təmin edən amillərin həm daxili, həm də beynəlxalq auditoriyanın diqqətinə çatdırılması baxımından çox önəmli fikirlər kimi nəşrdə əks olunub.

Kitabda dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza səfərlərinə də geniş yer ayrılıb.

"Zəfər salnaməsi" Bakının Azadlıq meydanında Vətən müharibəsində şanlı Qələbəyə həsr olunmuş Zəfər paradı ilə tamamlanıb. Bu hissədə dövlət başçısının dərin məzmunlu nitqi və tarixi əhəmiyyətə malik fikirləri öz əksini tapıb.

Bunlarla yanaşı, ölkə Prezidentinin işğal altında olan torpaqlarımızın bir-birinin ardınca işğaldan azad edilməsi ilə bağlı "Twitter" səhifəsində paylaşdığı müjdəli xəbərlər də kitabın səhifələrini bəzəyir.

Bir sözlə, "Zəfər salnaməsi" Azərbaycanın tarixi ədalətin bərpası uğrunda mübarizəsi ilə əlaqədar faktların öyrənilməsinə və möhtəşəm qələbəmizlə bağlı həqiqətlərin təbliğinə imkan verən çox əhəmiyyətli, zəruri informasiyalarla zəngindir. Nəşr bütövlükdə Azərbaycanın tarixi zəfərinin ayrı-ayrı məqamlarını özündə əks etdirən dəyərli, zəngin və mötəbər mənbədir.

# Azad edilmiş ərazilərin yenidən qurulması:

## *rasional iqtisadi və siyasi addımlar kontekstində*

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin zəfərlə yekunlaşması müasir tariximizin ən mühüm məsələlərindəndir. Bu gün əldə edilən siyasi, hərbi uğurlar və ərazilərimizin işğaldan azad edilməsinin strateji təməlləri Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsi üzərində bərqərar olmuşdur. Hazırda Azərbaycan Cənubi Qafqazda daxili və xarici siyasətin vəhdəti baxımından yeganə nümunəvi dövlətdir.



Cənubi Qafqazın digər ölkələrində cərəyan edən hadisələr isə ortadadır. Zaman-zaman yaranan sosial və siyasi gərginliklər, xaricdən idarə edilən hakimiyyət dəyişiklikləri bu ölkələrin inkişafına ciddi şəkildə zərbə vurdu. Xüsusilə Ermənistanın apardığı aqressiv siyasət xalqın güzəranının pisləşməsinə və ölkənin çöküşünə gətirib çıxardı. Azərbaycanda isə hər bir addım rasional əsasda atıldı. Xalq və dövlət vəhdəti gündən-günə gücləndi. İdarəçilik sistemində, iqtisadiyyatda islahatlar həyata keçirildi, gənc kadrların intellektual potensialından istifadə edildi. Dövlət başçısı dəfələrlə bəyan etdi ki, Azərbaycanın ən əsas kapitalı insan kapitalıdır.

Hərbi quruculuq fəaliyyətinin rasional şəkildə aparılması, eləcə də hərbi kadrların hazırlanması üçün həyata keçirilən tədbirlər əldə etdiyimiz qələbənin əsaslarıdır. Düşmən ölkənin mətbuatına baxanda onların süqutu ilə bağlı yazdıqlarını oxuduqda ölkəmiz adına qürur duyuruq. Analitiklər yazırlar ki, Ermənistan bu illər ərzində döyüş əhəmiyyəti az olan silahlar əldə edib. Azərbaycanda isə bunun tam əksinə dövlət başçısı cənab İlham Əliyevin birbaşa nəzarəti altında möhtəşəm hərbi sənaye kompleksi quruldu, praktik xassəli silahlar alındı. Azərbaycan hərbi təhsil müəssisələrində yetişmiş olan kadrlar isə nəinki Cənubi Qafqazda, hətta Xəzər hövzəsində ən güclü olduqlarını sübut etdilər. Və buna görə Azərbaycan zəfər qazandı. Bu zəfər Ümummilli Lider Heydər Əliyev strategiyasını reallaşdıran Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi dühasının nəticəsidir. Müharibə zamanı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa iştirakı ilə vətəndaş həmrəyliyi ortaya qoyuldu. Türkiyə ilə qardaşlıq münasibətlərinin xarakteri, Rusiya ilə praqmatik tərəfdaşlıq münasibətlərinin formalaşması da qələbəmizin siyasi və hərbi aspektlərinin tamamlanmasında önəmli rol oynadı.

Artıq torpaqlarımız işğaldan azad edilmişdir. Bu torpaqlarda yeni quruculuq işlərinin aparılması üçün dövlətimizin resursları səfərbər edilir. Ümumiyyətlə, Azərbaycanın iqtisadi siyasətinin təhlili onu deməyə əsas verir ki, mövcud potensial işğaldan azad edilmiş bölgələrin tezliklə dirçəlməsinə imkan verəcəkdir.

İşğaldan azad edilmiş bölgələrdə iqtisadi fəaliyyətin, infrastruktur sistemin innovativ əsasda formalaşdırılması olduqca vacibdir. Bunu öz çıxışlarında dəfələrlə bəyan edən dövlət başçısı cənab İlham Əliyev ölkəmizin innovativ xarakterini nəzərə çarpdırmışdır.

İşğaldan azad edilmiş bölgələrdə istənilən sahədə həyata keçirilən fəaliyyət elmtutumlu olmalıdır. İqtisadiyyatın inkişaf xarakterinin ekstensiv deyil, intensiv olması olduqca vacibdir. Xüsusilə də informasiya iqtisadi modellərinin bölgədə tətbiqi zəruridir. Artıq bu istiqamətdə işlərə başlanılmışdır. "Ağıllı" yaşayış məskənlərinin qurulmasının bölgədə iqtisadi fəaliyyətin əsası olduğu bəyan edilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bəyan etmişdir ki, ilk olaraq "Zəngilan rayonunda "ağıllı kənd" layihəsi icra ediləcək. Artıq ilkin işlər görülüb. Bərpa ediləcək birinci kənd məhz bu rayonun Ağalı kəndi olacaqdır". Bu bir daha onu göstərir ki, Azərbaycan qeyd edilən istiqamətdə də Cənubi Qafqazda ilk ölkə nümunəsini ortaya qoyacaqdır.

İşğaldan azad edilmiş bölgələrin rekonstruksiyasında "ağıllı" yaşayış məskənləri elementlərinin tətbiqi vətəndaşların həyatlarının daha da firavan olmasına xidmət edəcək. Müasir dünyada məhsuldarlığın əsas amili vətəndaşın rahatlığının təmin edilməsidir. Bu rahatlıq özünü istehsalatda, xidmət sektorunda büruzə verməlidir. Belə bir ortamda dövlətin həyata keçirdiyi bu layihələrin ictimai təşəbbüskarlıqla dəstəklənməsi olduqca vacibdir. Gələcəkdə maliyyə resurslarının müxtəlif ölçülərdə bu şəkildəki layihələrə cəlb edilməsi milli maraqlarımız daxilindədir. Çünki bu, dövlətimizin həyata keçirdiyi rekonstruksiya fəaliyyətlərində ümummilli iştirakı təmin edə bilər.

İşğaldan azad edilmiş bölgələrdə nəqliyyat infrastrukturunun yenidən qurulması istiqamətində artıq təməl əsaslar bəyan edilibdir. 2021-ci ilin yanvarında Azərbaycan Prezidenti Füzulidə beynəlxalq hava limanının tikintisi barədə sərəncam imzaladı. Hava limanının təməlqoyma mərasimi ötən ayın 14-də baş tutdu. Bu limanın tikilməsi, eləcə də dəmir yol və avtomobil nəqliyyatı sisteminin yenidən qurulması iqtisadi hərəkətliliyi artıracaqdır. Həmçinin nəqliyyat yollarının diversifikasiyası bölgədə iqtisadi inkişafın düzgün paylaşılmasına kömək göstərəcəkdir. Azərbaycan Respublikasının bu bölgədə nəqliyyat şəbəkəsini innovativ şəkildə yenidən qurması dövlətimizin Cənubi Qafqazın əsas ölkəsi kimi statusunu gücləndirəcəkdir.

İşğaldan azad edilmiş ərazilərdə turizm fəaliyyətinin inkişafı üçün də bütün imkanlar var. Şuşa şəhəri kimi mədəniyyət incisi, Kəlbəcər, Laçın, Qubadlı və Zəngilan kimi təbiət turizmi mərkəzləri möhtəşəm perspektivlərdən xəbər verir. Ancaq potensial hələ məsələlərin tam həll edilməsi demək deyildir. Məhz bu rasional əsasda bölgədə idarəçilik sisteminin ən optimal üsulları seçilir. Bu baxımdan xüsusi nümayəndəlik institutunun yaradılması olduqca mühüm əhəmiyyət kəsb edir. Xüsusi nümayəndəlik institutu işğaldan azad edilən torpaqlarda iqtisadi quruculuğun və sosial bərpa fəaliyyətlərinin intensivliyinə öz müsbət təsirini göstərəcəkdir.

Bütün bu tədbirlər dövlətin xalqımıza olan qayğısının göstəriciləridir. Bunun müqabilində bizim də üzərimizə düşən vəzifəmiz vətəndaş məsuliyyətinin, ümummilli iştirakın və təşəbbüskarlığın təmin edilməsidir. Azərbaycan öz hərbi, siyasi və iqtisadi nailiyyətləri ilə güclü dövlət olduğunu göstərdi. Eyni zamanda ölkəmizdə həyata keçirilən islahatlar onu təsdiqləyir ki, Azərbaycan ümummilli rifah dövlətidir. Azərbaycan həm də qlobal və regional aspektdə aparıcı beynəlxalq aktorlardan biridir. Ölkəmiz öz daxili və xarici siyasəti ilə sabitlik və inkişafın birgəliyinin təmin edilməsinin nümunəsini ortaya qoymuşdur.

***Yaqub YAQUBOV,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru,***
***Zəngilan rayon sakini***

# Qarabağ Qafqazın inkişaf və quruculuq mərkəzinə çevriləcək

## Prezidentin diqqəti sayəsində işğaldan azad olunmuş ərazilərin bərpası ən qısa zamanda başa çatdırılacaq

*Əvvəli 1-ci səh.*

### İlham Əliyev AXC-Müsavat cütlüyünün tariximizə vurduğu ləkəni sildi

Laçın rayonunun cənub hissəsi və bir neçə yaşayış məntəqəsi, o cümlədən Güləbird kəndi ordumuz tərəfindən döyüş yolu ilə azad edildi. İlham Əliyev də Güləbirdə məhz bu yolla səfər etdi. Rayonun şimal hissəsi isə Ermənistanın kapitulyasiyasından sonra Azərbaycan Ordusunun nəzarətinə keçdi. Bununla da Laçının 28 il yarım davam edən işğalına son qoyuldu.

Laçın rayonu 1992-ci ildə Şuşa şəhərinin Ermənistan tərəfindən işğalından 10 gün sonra zəbt olunmuşdu. Şuşa kimi Laçın da xəyanətin qurbanı olmuşdu. Bu xəyanətin müəllifləri isə həmin dövrdə hakimiyyət uğrunda mübarizə aparan və bu yolda hər cür riyakarlığa hazır olan AXC-Müsavat qaragüruhu idi. "Laçın rayonunu satanlar, Şuşanı satanlar eyni adamlardır. Mən bunu demişəm. Bir daha demək istəyirəm ki, Azərbaycan xalqı bunu bilsin və heç vaxt unutmasın. AXC-Müsavat mənfur cütlüyü hakimiyyətə gəlmək üçün bu torpaqları düşmənə satıb. O vaxt hakimiyyəti yıxmaq üçün Bakıda mitinqlər təşkil edirdilər, çaxnaşma təşkil edirdilər, hakimiyyətə gəlmək üçün istənilən satqınlığa hazır idilər və bu satqınlığı etdilər. Şuşanı boşaltdılar. Halbuki onların nəzarəti altında qüvvələr var idi. Şuşa ermənilər oraya girəndə faktiki olaraq boş idi. Şuşanı heç kim müdafiə etmirdi. Sonra Laçın rayonunu da satdılar və ondan sonra heç bir ay keçməmiş hakimiyyətə gəldilər. AXC-Müsavat cütlüyü bu satqınlığı, bu xəyanəti edib, bu cinayəti törədib", - deyə Prezident İlham Əliyev bildirdi.



Laçın rayonunun işğal altına düşməsi strateji nöqteyi-nəzərdən çox böyük məğlubiyyət idi. Çünki bununla düşmən Ermənistandan Qarabağa gedən yollara nəzarəti ələ keçirdi. Laçının işğalından sonra düşmən Azərbaycanın digər rayonlarının da işğalı üçün münbit şərait formalaşdırdı. AXC-Müsavat qaragüruhu isə bu hadisələrdən sonra Azərbaycanda hakimiyyətə gəldi və yürütdüyü siyasətlə tariximizin növbəti qara səhifələrinə imza atdı.

AXC-Müsavat cütlüyünün xəyanətinin qurbanı olan Laçın rayonunu İlham Əliyev işğaldan azad etdi. Məhz İlham Əliyev yenilməz qətiyyəti, siyasi iradəsi ilə onların 1992-ci ildə tariximizə vurduğu qara ləkəni sildi, xalqımızın yüksək milli qürurunu təmin etdi.

Bir məsələni də unutmamalıyıq ki, Ermənistan danışıqlar prosesində Laçını qaytarmaq istəmirdi. Çünki bu ərazi Dağlıq Qarabağla Ermənistan arasında coğrafi bağlantının yaradılması baxımından strateji əhəmiyyət daşıyır. Lakin Azərbaycan öz dəmir yumruğu ilə Laçını da, işğalçıların qaytarmaq istəmədikləri Kəlbəcəri də, Şuşanı da azad etdi. Üstəlik, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər istiqamətlərində Azərbaycanın dövlət sərhədləri tam bərpa edildi.

### Qarabağ bölgəsinin dirçəldilməsi prosesi sürətlə həyata keçirilir

İlham Əliyevin azad olunmuş rayonlara sayca beşinci səfəri həm də onu göstərdi ki, Qarabağ bölgəsinin dirçəldilməsi prosesi sürətlə həyata keçirilir. Bu baxımdan səfər dövlətimizin başçısının iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə ilk infrastruktur layihəsinin icrasının başa çatdırılaraq istifadəyə verilməsi ilə əlamətdar oldu. Həkəri çayı üzərində inşa olunmuş "Güləbird" Su Elektrik Stansiyası azad edilmiş torpaqlarda istismara verilən birinci su elektrik stansiyasıdır və Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bunun böyük rəmzi mənası var.

Ümumiyyətlə, dövlət başçısının qarşıya qoyduğu vəzifələrdən biri işğaldan azad edilmiş torpaqların "yaşıl enerji" zonası olmasıdır. Qarabağ bölgəsində enerjinin ekoloji baxımdan təmiz əldə edilməsi üçün geniş imkanlar var. Bu ərazilərdə həm külək, həm də günəş enerjiləri üçün potensial böyükdür. Həmçinin azad olunmuş ərazilərdəki çaylar ucuz və ekoloji baxımdan təmiz olan su elektrik stansiyalarının yaradılması üçün əlverişlidir. İlham Əliyevin Laçında elan etdiyi kimi, düşmənin bu rayonun ərazisində dağıtdığı 5 su elektrik stansiyasının hamısı bərpa ediləcək. Kəlbəcər rayonunun ərazisində isə 12 su elektrik stansiyası yenidən qurulacaq. Bununla da yalnız Kəlbəcər və Laçın rayonlarında bərpa ediləcək stansiyaların generasiya gücü 120 meqavat olacaq. Həmçinin bir neçə ildən sonra 120 meqavat generasiya gücü "Xudafərin" və "Qız Qalası" stansiyalarından əldə olunacaq.

### "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları reallaşdırılacaq

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması istiqamətində həyata keçirilən layihələrin arasında yol-nəqliyyat infrastrukturunun böyük əhəmiyyəti var. Məlum olduğu kimi, Prezident İlham Əliyevin əvvəlki səfərləri zamanı Şuşaya çəkilən yeni avtomobil yolunun, Füzulidə beynəlxalq aeroportun təməli qoyulmuşdu.

Fevralın 14-də isə Prezidentin iştirakı ilə Füzuli rayonunda Horadiz-Ağbənd dəmir yolu xəttinin təməli qoyuldu. Ümumi uzunluğu 100 kilometr olan bu dəmir yolu xəttinin strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında birbaşa dəmir yolu əlaqəsinin yaranmasına böyük töhfə verəcək. Bu dəmir yolu infrastrukturu Türkiyəyə qədər uzanacaq və beləliklə, Azərbaycanı Türkiyə ilə birləşdirən ikinci dəmir yolu şəbəkəsi yaradılacaq.

Təbii ki, qarşıda duran ən vacib vəzifələrdən biri erməni vandallarının dağıtdıqları şəhərlərin, kəndlərin, qəsəbələrin yenidən qurulmasıdır. Bütün yaşayış məskənlərimiz nəinki yenidən qurulacaq, hətta işğaldan azad olunmuş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları reallaşdırılacaq. İlk "ağıllı kənd" layihəsi isə Zəngilan rayonunda həyata keçiriləcək. Prezident İlham Əliyev Laçından bir daha bəyan edərək Qarabağın cənnətə çevriləcəyini dedi: "Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Torpaqlarımız Ali Baş Komandanın yenilməz iradəsi və dövlətimizin gücü ilə işğaldan azad olundu. Bu ərazilərin bərpası da Prezident İlham Əliyevin xüsusi diqqəti və dövlətimizin imkanları sayəsində ən qısa zamanda başa çatdırılacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Axullu sakini:* "Ermənilər tarixi izimizi, mənəvi yaddaşımızı silmək istəyiblər"

Qarabağda erməni vandalizminə məruz qalan yaşayış məntəqələrimizdən biri də Xocavənd rayonunun Axullu kəndidir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, gözəl təbiətə malik Axullu kəndi Qarabağ silsiləsinin ətəyində yerləşir. Ermənilər tərəfindən işğal edilənə qədər burada heyvandarlıq və üzümçülük inkişaf etmişdi. Axullu kəndi 1992-ci il yanvarın 9-da ermənilər tərəfindən işğal edilərək yandırılıb. Kənd Azərbaycan Ordusunun həyata keçirdiyi əks-həmlə əməliyyatları zamanı 2020-ci il oktyabrın 16-da işğaldan azad edilib.




Axullu kəndində ilk baş çəkdiyimiz yer qəbiristanlıq oldu. Erməni vandalları işğal etdikləri digər şəhər və kəndlərimizdə olduğu kimi, burada da məzarları dağıdıb, məzar daşlarını uçurublar. Kənd sakini Şaiq Aslanovla söhbət zamanı bildirib ki, Axullu erməni kəndlərinin əhatəsində yerləşdiyinə görə Qarabağ münaqişəsinin ilk günlərindən bu hadisələrin mərkəzində olub. "1988-ci ildən başlayaraq ermənilər tərəfindən kəndin əhalisinə qarşı təcavüz, zor tətbiq edilməyə, onların sıxışdırılmasına başlandı. İnsanlar təhqir edilir, iş yerlərindən qovulurdu. Kənd sakinləri sovxozun əkin yerlərindən istifadə edə bilmirdi. 1988-ci ildən 1992-ci ilin yanvarınadək mübarizə apardıq. Bilirdik ki, ermənilərin fikri bizi sıxışdıraraq çıxartmaq, Dağlıq Qarabağda azərbaycanlılarsız qurum yaratmaq idi. Kənd 1992-ci il yanvarın 9-dan 10-na keçən gecə yandırıldı. Bax, bura kənd məktəbidir, onu da yerlə-yeksan ediblər. Görürsünüz, kəndin qəbiristanlığı da tamamilə dağıdılıb. Ermənilərin məqsədi təkcə bizi buradan qovmaq yox, həm də tarixi izimizi, mənəvi yaddaşımızı silmək idi".

Uzun illərdən sonra doğma kəndlərinə gələn Axullu sakini Rəmziyyə Aslanova həm sevincli, həm də kədərlidir. "29 illik ayrılıqdan sonra ilk dəfə doğulub boya-başa çatdığım kəndə gəlmişəm. Həm sevinc, həm də kədər hissləri keçirirəm. Kəndimiz dağılmış olsa da, xarabalığa çevrilsə də, bu torpağa qədəm qoydum. Evimizin qalıqlarını tapdım. Doğulub böyüdüyüm, uşaqlığım, gəncliyimin keçdiyi, valideynlərimin min əziyyətlə tikib-yaratdığı evimizi bu vəziyyətdə görmək insana pis təsir edir. Ancaq yenidən doğma kəndimə gəldiyim üçün çox sevinirəm. Sevincimin həddi-hüdudu yoxdur", - deyə R.Aslanova bildirib.

# İŞİMİZ, GÜZƏRANIMIZ



# AÇG-nin “şah damar”ı

“Azəri” təkcə Xəzərdə deyil, bütün dünyada istismar edilməkdə olan ən böyük karbohidrogen yataqlarından biridir. Onun ərazisinin böyüklüyü, neft-qaz ehtiyatlarının zənginliyi, hasilatının həcmi və gətirdiyi gəlirlər belə deməyə əsas verir.

## 16 il əvvəl “Azəri” yatağından ilk neft alınmışdır

“Azəri”nin işlənməsi “Əsrin müqaviləsi” adını almış “Azəri-Çıraq-Günəşli” (AÇG) layihəsinin mühüm hissəsidir. Odur ki, bu yataqdan ilk neftin alınması “Əsrin müqaviləsi”nin kulminasiya nöqtəsi sayılır. “Azəri”nin ilk nefti yatağın mərkəzi hissəsindən 16 il əvvəl çıxarıldı. Bu münasibətlə platformada təntənəli tədbir keçirildi. Qeyd edək ki, “Azəri”nin daha iki - qərb və şərq hissələri də var ki, onların hərəsi özlüyündə bir yataqdır. Bu da onun nəhəng neft-qaz mənbəyi olduğunun daha bir təsdiqidir.

2005-ci ilin fevralında “Azəri”dən alınan neft həmin ilin mayında artıq tikintisi başa çatmış Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə vuruldu və bu, böyük tarixi hadisə idi. Bu gün də BTC-nin nəql etdiyi neftin böyük hissəsini “Azəri”nin hasilatı təşkil edir.

Xatırladaq ki, AÇG-də BP (30,37 faiz), SOCAR (25 faiz), MOL (16 aprel 2020-ci il aprelin 16-dan “Şevron” şirkətini əvəz edib, 9,57 faiz), İNPEKS (9,31 faiz), “Ekvinor” (7,27 faiz), “EksonMobil” (6,79 faiz), TPAO (5,73 faiz), İTOÇU (3,65 faiz), OVL - ONGC Videş Limited (2,31faiz) tərəfdaşlıq edirlər. AÇG üzrə Hasilatın Pay Bölgüsü haqqında Sazişin podratçı tərəfləri adından “BP Exploration (Caspian Sea) Limited” şirkəti operatordur.

AÇG çərçivəsində ilk neft 1997-ci ilin noyabrında “Çıraq” platformasından alınıb. Bundan sonra neft verən ikinci platforma “Mərkəzi Azəri”dir. “Qərbi Azəri”də neft hasilatına 2006-cı ilin əvvəlində, “Şərqi Azəri”də isə həmin ilin sonunda başlanıb. 2008-ci ilin aprel ayında “Dərinsulu Günəşli” və 2014-cü ilin əvvəlində “Qərbi Çıraq” platformaları da neft verib. Beləliklə, indi AÇG müqavilə sahəsində 8 platforma istismar olunur ki, bunların da 6-sı hasilat platformasıdır. Məlum olduğu kimi, AÇG layihəsinin müddəti 2050-ci ilin əvvəlinədək uzadılıb. Yeni - “Azəri Mərkəzi Şərqi” layihəsi çərçivəsində daha bir platformanın tikintisi həyata keçirilir.

AÇG-nin bütün platformaları kimi, “Azəri”nin qurğuları da ölkə daxilində inşa edilib. Yataqdakı hasilat platformaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. “Mərkəzi Azəri”dəki Kompressor və Suvurma Platformasının (K və SP) göyərtəsi Bakının Bibiheybət ərazisindəki ATA (“AMEK-Tekfen-Azfen”) alyansının tikinti-quraşdırma sahəsində inşa edilib. K və SP “Azəri”nin qərb və şərq hissələrinə də qaz və suvurma əməliyyatları, elektrik təchizatı ilə bağlı xidmətlər göstərir.

“Azəri” neftini və səmt qazını Səngəçal terminalına çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Terminalda həmin karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün geniş infrastruktur yaradılıb.

“Azəri”dən çıxarılan neft Səngəçala 30 düymlük sualtı borularla çatdırılır. Yataqda hasil olunan səmt qazının bir hissəsi laylardakı təzyiqi saxlamaq üçün və yanacaq kimi platformalarda istifadə olunur. Qalan hissəsi isə 28 düymlük sualtı xətlərlə terminaldakı texnoloji emal qurğularına nəql edilir və buradan ölkənin daxili istifadəsi üçün “Azəriqaz” şəbəkəsinə ötürülür.

Hələ 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradılmışdır. Sonrakı illərdə ölkənin sosial-iqtisadi inkişafına sərf olunan daxili investisiyaların xeyli hissəsi məhz bu fondun hesabına formalaşmışdır.

Azərbaycanın həyata keçirdiyi digər neft-qaz layihələri kimi, “Azəri” də ölkənin böyük həcmdə valyuta ehtiyatları əldə etməsinə imkan vermişdir. Dövlət bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəltmişdir. Beləliklə, Azərbaycanın iqtisadi inkişafı təmin edilmişdir. İnsanların rifah halı yüksəlmişdir. Eyni zamanda çoxsaylı infrastruktur layihələri icra edilmiş, sosial məsələlər öz həllini tapmışdır.

Prezident İlham Əliyevin düşünülmüş və gələcəyə hesablanmış iqtisadi siyasəti sayəsində neft gəlirləri həmçinin qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Bu vəsaitlərin xeyli hissəsi məhz “Azəri”nin 16 il əvvəl hasil olunmasına başlanmış neftindən əldə edilən gəlirlərlə yaranmışdır. Dövlət başçısı AÇG yataqlarında hasilatın sabit saxlanılmasının vacib məsələ olduğunu vurğulayaraq demişdir: “Azəri-Çıraq-Günəşli” ilə bağlı bütün işlər plan üzrə gedir və bu yataq bizim əsas gəlir mənbəyimizdir. Bunu hər kəs bilməlidir”.

Koronavirus pandemiyasının yaratdığı çətinliklərə və məhdudiyyətlərə baxmayaraq, AÇG-də hasilat sabit və təhlükəsiz şəkildə davam edir. Keçən il bu yataqlar blokunda ümumi hasilat gündə orta hesabla 477 min barel və ya ümumilikdə təxminən 175 milyon barel, yəni 23,6 milyon ton olub. O cümlədən “Mərkəzi Azəri”dən gündə orta hesabla 113 min 200, “Qərbi Azəri”dən 118 min 900, “Şərqi Azəri”dən 64 min 200 barel neft hasil edilib.

2020-ci il ərzində AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin Neft daşlarındakı qurğu vasitəsilə gündə orta hesabla 6 milyon kubmetr, ümumilikdə isə 2,2 milyard kubmetr səmt qazı ötürülüb. Hasil edilən səmt qazının qalan hissəsi təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Keçən il AÇG yataqlar blokunun işlənməsi layihəsi çərçivəsində 3 milyard 522,7 milyon ABŞ dolları həcmində gəlir əldə edilib. Bunun böyük bir hissəsi “Azəri”nin töhfəsidir.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Azərbaycanın orqanik məhsul yetişdirmək üçün böyük potensialı var

Müasir dünyanın əsas məsələlərindən biri də təbii ehtiyatlardan səmərəli istifadə etmək, ətraf mühiti və torpağı çirklənmədən qorumaqla ekosistemdə harmoniyanı saxlamaq və ekoloji təmiz məhsul istehsal etməkdən ibarətdir. Lakin dünya əhalisinin sayını və artım sürətini nəzərə alsaq, ərzaq məhsullarına artan tələbatın ödənilməsi üçün ekoloji təmiz məhsullarla kifayətlənmək xeyli çətin olur.



Buna baxmayaraq, kənd təsərrüfatı məhsulları üzərində genetik dəyişikliklərin aparılması da hazırda ciddi narahatlıq doğurur. Bu sahədə insan sağlamlığına təhlükə yaradan texnologiyalardan, kimyəvi preparatlardan istifadə olunması, gen modifikasiyalı sort və cinslərin yaradılması əhalinin etibarlı ərzaq təminatına təhlükə yaradır. Ona görə də hazırda bütün dünyada ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalına xüsusi əhəmiyyət verilir, aqrar sahədə kimyəvi maddələrin istifadəsi məsələsinə nəzarət gücləndirilir, torpaqların çirklənməsinə təsir göstərən texnologiyaların tətbiqinin qarşısı alınır. Başqa sözlə, bu gün orqanik kənd təsərrüfatı məhsullarının - insan sağlamlığına və ətraf mühitə zərər verməyən və istehsalda heç bir kimyəvi maddədən istifadə edilməyən, istehsaldan istehlaka qədər hər mərhələsinə nəzarət olunan sertifikatlı əkinçilik istehsalının -formalaşdırılması diqqət mərkəzində saxlanılır.

Məlumdur ki, kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün müxtəlif intensiv üsullardan bəzən həddən artıq istifadə edilir. Sözsüz ki, belə üsullar, yəni gübrə və minerallardan normadan çox istifadə edilməsi məhsulun keyfiyyətinə və insan sağlamlığına mənfi təsir göstərir. Ən qorxulusu isə geni dəyişdirilməklə (GMO) və hibridləşdirməklə məhsulların yetişdirilməsidir. Dünya alimləri arasında belə məhsulların insan üçün ziyanlı olub-olmaması barədə mübahisələr davam etsə də, bu növ qidaların zərərli olmasına inam daha çoxdur.

GMO-lu məhsulların heyvanlar üzərində aparılan təcrübəsi də onun zərərli olduğunu göstərib. Məsələn, geni dəyişdirilmiş pomidorla bəslənən siçanlarda mədə xorası xəstəliyi yaranıb. GMO-lu soya ilə bəslənən siçanlarda isə qaraciyər və mədəaltı vəzin funksiyalarında pozğunluqlar meydana çıxıb. Təbii ki, heyvanlarda fəsadlar yaradan bu məhsullar insan üçün də təhlükəlidir. Odur ki, dünyada orqanik məhsulların yetişdirilməsinə tələbatın gündən-günə artması anlaşılandır.

Beynəlxalq Orqanik Kənd Təsərrüfatı Federasiyası (İFOAM) və FİBL Araşdırma İnstitutunun hesabatlarına görə, dünyada 3 milyona yaxın istehsalçı 70 milyon hektaradək sahədə orqanik məhsullar yetişdirir. Ən çox orqanik məhsullar yetişdirilən ölkələr sırasında Avstraliya öndə gedir. Bu ölkədə təxminən 30 milyon hektar orqanik kənd təsərrüfatı məhsulları yetişdirilən sahə var. İkinci yerdə 4 milyon hektarla Argentina, üçüncü yerdə 2,5 milyon hektaradək sahə ilə ABŞ gəlir. Türkiyədə ümumi əkin sahələrində orqanik məhsul yetişdirilən ərazilərin payı təqribən 2 faizdir. Qardaş ölkədə orqanik məhsul bazarının dəyəri 600 milyon dollar səviyyəsindədir ki, həmin məhsulların da çox hissəsi ixrac edilir. Bununla belə dünya üzrə orqanik məhsul istehsalı ənənəvi kənd təsərrüfatı ilə müqayisədə cəmi bir faiz paya sahibdir.

Ölkəmizə gəldikdə, Azərbaycanda ekoloji təmiz kənd təsərrüfatının əsası keçən əsrin 90-cı illərinin sonlarında qoyulmuşdur. 2008-ci ilin iyununda “Ekoloji təmiz kənd təsərrüfatı haqqında” qanun qəbul olunmuş, normativ hüquqi və informasiya-məlumat bazası formalaşdırılmışdır. 2019-cu ildə isə “Orqanik məhsul istehsalı haqqında” qanun layihəsi hazırlanmışdır. “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə də ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsalı qarşıya mühüm vəzifə kimi qoyulub. Yol xəritəsində qarşıya qoyulan vəzifələrin icrası vaxtında təmin olunarsa, ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal edən fermerlərin sayının 50, ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsal həcminin isə 200 faiz artacağı proqnozlaşdırılır.

“Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram”da ekoloji təmiz kənd təsərrüfatı məhsul istehsalı üçün iki şərt diqqətdə saxlanılmışdır. Bunlardan biri kənd təsərrüfatında kimyəvi maddələrin istifadəsinin milli və regional səviyyələrdə sxemlərinin yaradılması və buna nəzarətin gücləndirilməsi, digəri torpaqların çirklənməsinə və zəifləməsinə səbəb ola bilən texnologiyalardan istifadənin qarşısının alınmasıdır. Təəssüf hissi ilə demək lazımdır ki, hazırda torpaq sahələrimizin böyük bir hissəsi deqradasiyaya məruz qalmışdır. Üstəlik, ölkəmizin yeni torpaq etüd xəritələri də hazırlanmamışdır. Ölkəmizdə son dəfə torpaq sahələrinin etüd xəritələməsi ötən əsrin 50-ci illərində həyata keçirilmişdir. Bu müddət ərzində torpaq qatları kifayət qədər dəyişikliklərə məruz qalmışdır. Qeyd edək ki, torpaq sahəsinin etüd xəritələməsi qabaqcıl dövlətlər üçün ciddi əhəmiyyət kəsb edir. Hətta Avropa İttifaqına qəbul olunmaq üçün namizəd ölkələrdən icra edilməsi tələb olunan şərtlərdən biri də məhz etüd xəritələrin hazırlanmasıdır.

Ekoloji təmiz kənd təsərrüfatı istehsalı aqrar sahənin davamlı inkişaf üsulu olmaqla, bir sıra sosial, ekoloji və iqtisadi problemlərin səmərəli surətdə həll edilməsinə də imkan yaradır. Qeyd edilən məsələlər də ekoloji təmiz kənd təsərrüfatının inkişaf etdirilməsinin prioritet seçilməsini şərtləndirir. Bu prioritet üzrə ekoloji təmiz kənd təsərrüfatı istehsalında fəaliyyətin koordinasiyası sisteminin formalaşdırılması, ekoloji təmiz kənd təsərrüfatının təşkili üzrə pilot layihələrin hazırlanması və həyata keçirilməsi ilə bağlı tədbirlər görülməli, ekoloji təmiz kənd təsərrüfatı sisteminin inkişafına kömək edən sosial və iqtisadi təşviqetmə tədbirləri genişləndirilməlidir. Ənənəvi təsərrüfatdan orqanik təsərrüfata keçid prosesi fermerlər üçün riskli göründüyü üçün onlara məhz bu keçid mərhələsində dəstək verilməlidir.

Ölkəmizdə orqanik yetişdirilən fındıq, qoz, fıstıq, quru meyvələrə dünya bazarında böyük tələbat var. Bizim paxlalılar, tibbi aromatic bitkilər, pambıq və zeytun kimi məhsullar da orqanik istehsal məhsulları arasında yer alır. Bitki mənşəli istehsalla yanaşı, orqanik heyvan məhsulları istehsalına da son illər maraq artır. Ət, süd, pendir, qatıq, yumurta və bal orqanik bazarda artıq öz yerini alır. Böyürtkən, moruq, adaçayı, itburnu, kəklikotu kimi bitkilər də orqanik məhsul olaraq böyük potensiala malikdir. Çünki ölkəmizin meşə massivlərində yabanı şəkildə yetişən və tam orqanik məhsul sayılan bu cür meyvələrin sertifikatlaşdırılaraq dünya bazarlarına çıxarılması üçün problem yoxdur. Belə ki, ötən ilin iyun ayında Ekologiya və Təbii Sərvətlər Nazirliyi “Zaqatala-Balakən biosfer rezervatının yaradılması” layihəsinə start vermişdir. Zaqatala Dövlət Təbiət Qoruğunun bazasında yaradılacaq bu qurum həmin bölgədə ekoturizmin inkişafına və yerli əhalinin məşğulluğunun artırılmasına şərait yaradacaq, insanların flora və faunaya zərər vermədən təbiət gözəlliklərini seyr etməsi üçün hərəkət cığırları, müəyyən ərazilər müəyyənləşdiriləcək. Qoruqdan fərqli olaraq biosfer rezervatın ərazisinə ekoturistlərin girişi açıq olacaq. Biosfer rezervatın özəlliklərindən biri də odur ki, burada istehsal olunan orqanik məhsullar qoruğun loqosu ilə qablaşdırılacaq və ixrac olunan zaman gömrük rüsumundan azad ediləcək.

Ölkəmizdə orqanik məhsulların istehsalına marağın artması çərçivəsində biogübrələrin də istehsalına başlanılmışdır. Siyəzəndə istifadəyə verilmiş müəssisədə quş zilindən hazırlanan orqanik gübrə torpağın məhsuldarlığına və məhsulun keyfiyyətinə müsbət təsir göstərir. Üzvi gübrələrin istifadəsi yetişdirilən məhsulların ekoloji təmizliyinə zəmin yaradır və təbii şəkildə inkişafına kömək edir.

Geni dəyişdirilmiş məhsullara mənfi reaksiyanın artdığı indiki zamanda orqanik məhsul yetişdirilməsində sürətli inkişafın əhəmiyyəti danılmazdır. Bu baxımdan ölkəmizin işğaldan azad edilmiş ərazilərinin önəmi çoxdur. Qarabağ ərazisinin kənd təsərrüfatına yararlı 600 min hektara yaxın torpaq sahəsinin illər boyu istifadə edilməməsi bu ərazilərdə biogübrələrin tətbiqi və bunun ardınca orqanik məhsul istehsalı sahələrinin salınması üçün əlverişli mühit yaradır. Dövlət başçısının dəfələrlə vurğuladığı kimi, ixrac imkanlarımızın genişləndirilməsi və məhsullarımızın dünya bazarlarına çıxarılması üçün ideal vaxtdır. Azad edilmiş ərazilərimizin təbii iqlim, su, torpaq şəraiti buranın tamamilə orqanik bölgə elan edilməsini mümkün və labüd edir.

***Emin ƏLİYEV,***
***“Ekoloji təmiz məhsul istehsalçıları və ixracatçıları” ictimai birliyinin sədri***




# Son üç ildə minimum pensiya 82, orta aylıq pensiya 43, müavinətin orta aylıq məbləği 95 faiz artıb

### Bu dövrdə pensiyalara ayrılan illik vəsait 36 faiz artaraq 4 milyard 477 milyon, müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə illik xərclər 97 faiz artaraq 1 milyard 156 milyon manata çatıb







Ölkəmizdə əhalinin rifah halının yaxşılaşdırılması istiqamətində atılan addımlar, aparılan islahatlar sosial təminat növləri üzrə ödənişlərin hər biri üzrə ciddi artım dinamikası ilə nəticələnib. Bu pozitiv tendensiyanı 2018-2020-ci illərin sosial mənzərəsində də aydın görmək olar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yaydığı məlumatda bildirilir ki, qeyd olunan dövrdə pensiyaların minimal məbləği 82 faiz artaraq 200, orta aylıq məbləği 43 faiz artaraq 298 manata çatıb. O cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 40 faiz artaraq 328, əlilliyə görə pensiyaların orta aylıq məbləği 49 faiz artaraq 261, ailə başçısını itirməyə görə pensiyaların orta aylıq məbləği 46 faiz artaraq 240 manata yüksəlib.

Artım tempi müavinət və təqaüdlərdə, ünvanlı sosial yardımlarda da özünü göstərib. Son üç ildə müavinətlərin orta aylıq məbləği 95, maksimum məbləği 65 faiz artmaqla müvafiq olaraq 119 və 150 manat olub. Təqaüdün maksimum məbləğində 54 faiz artım baş verib və bu məbləğ 1300 manatdan 2000 manata yüksəlib.

Ünvanlı dövlət sosial yardımının hər ailəyə düşən orta aylıq məbləği 61 faiz artaraq 240 manata çatıb. Bu artımın əsasında eyni zamanda ehtiyac meyarı həddinin ildən-ilə artırılması dayanır. Ehtiyac meyarı həddi 2018-2020-ci illərdə 116 manatdan 160 manata çatdırılıb ki, bu da 38 faiz artım deməkdir. Yaşayış minimumunun məbləği də son üç ildə 23 faiz artırılaraq 155 manatdan 190 manata yüksəlib.

Bütün bu artım dinamikası həmin ödənişlərə yönəldilən vəsaitlərin də artırılmasını şərtləndirib. Belə ki, 2018-2020-ci illərdə pensiya istiqaməti üzrə ayrılan illik vəsait 36 faiz (1 milyard 188 milyon manat) artaraq 4 milyard 477 milyon, müavinətlərə ayrılan illik vəsait 120 faiz artaraq 613 milyon, təqaüdlərə ayrılan illik vəsait isə 3,5 dəfə artaraq 326 milyon manata çatıb.

Ümumilikdə büdcədən müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə illik xərclərin həcmində 97 faiz artım özünü göstərməklə bu xərclər 588 milyon manatdan 1 milyard 156 milyon manata yüksəlib.

Son üç ilin timsalında sosial ödənişlərdəki bu statistika artımların qarşıdakı dövrdə də ardıcıl davam edəcəyini şərtləndirir.

## Ölkədə minik avtomobillərinin istehsalı azalıb

Yanvarda ölkədə 96 və ya ötən ilin müvafiq ayına nisbətən 96 ədəd az minik avtomobili istehsal olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, maşın və avadanlıqların, sair nəqliyyat vasitələrinin, avtomobil, qoşqu və yarımqoşquların istehsalı sahələrində 22,7 milyon manatlıq məhsul istehsal edilib. 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 1,9 faiz, sair nəqliyyat vasitələrinin istehsalı 66,7 faiz azalıb, maşın və avadanlıqların istehsalı isə 23,5 faiz azalıb.

## Tütün məmulatları, içki və qida məhsullarının istehsalı artıb

2021-ci ilin yanvarında ötən ilin müvafiq ayı ilə müqayisədə tütün məmulatlarının istehsalında 2,9 dəfə, içki istehsalında 4,8 faiz, qida məhsullarının istehsalında isə 3 faiz artım müşahidə olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, bu sahələrin əsas məhsullarından duru bitki yağları 35,9 faiz, kolbasa məmulatları 24,9 faiz, kərə yağı istehsalı 2,4 faiz artıb, marqarin istehsalı 6,3 faiz, qənd və şəkər tozunun istehsalı isə 85,7 faiz azalıb.

## Maliyyə Nazirliyinin istiqrazlarının yerləşdirilməsi üzrə hərrac keçiriləcək

Fevralın 23-də Bakı Fond Birjasında (BFB) Maliyyə Nazirliyinin dövlət ortamüddətli istiqrazları üzrə hərrac keçiriləcək.

BFB-dən AZƏRTAC-a bildirilib ki, faizli, ortamüddətli dövlət istiqrazlarının ümumi həcmi 20 milyon manat, nominal dəyəri 100 manat, faiz gəliri 7,5 faiz, tədavül müddəti 1092 gündür. İstiqrazlar 2024-cü il fevralın 20-də ödəniləcək. “PAŞA Kapital” İnvestisiya Şirkəti QSC anderrayter vəzifəsində çıxış edir.

Hərrac zamanı qeyri-rəqabətli sifarişlərin istiqrazların buraxılışının 20 faizdən çox olmamaq şərtilə qəbul edilməsinə icazə verilir. Bundan əlavə, hərrac iştirakçıları tərəfindən istiqrazların alınması üçün verilən sifarişlərin həcmi emitent tərəfindən hərraca çıxarılmış istiqrazların həcminin 20 faizdən aşağı olduğu təqdirdə emitent bu sifarişləri qəbul etməyə bilər. Hərrac zamanı dövlət istiqrazlarına tələb təklifi üstələyəcəyi və qiymət emitenti qane edəcəyi halda isə emitent tərəfindən təklif edilən istiqrazların həcmi 50 faizədək artırıla bilər. Hərracda iştirak etməkdə maraqlı olan şəxslər birja üzvü olan investisiya şirkətlərinə müraciət edə bilərlər. Birja üzvlərinin əlaqə vasitələri BFB-nin internet saytının (www.bfb.az) “Üzvlər” bölməsində yerləşdirilib.

# “YAŞAT” Fondu daha 10 qazini Türkiyəyə müalicəyə göndərib






Ağır yaralanan qazilərimiz Quliyev Şahin Famiq oğlu, Hüseynov Kamil Dursunəli oğlu, Əzməmmədov Şəhriyar Şahməmməd oğlu, Vəçhiyev Çingiz Məmməd oğlu, Quliyev Həsrət Həsən oğlu, Abdullayev Xəyal Yaşar oğlu, Əliyev Qismət Nəsib oğlu, Rustəmli İlkin Elçin oğlu, Eminov Aqil Vahid oğlu, Mehtixanov Məhəmməd Biroğlan oğlu “YAŞAT” Fondu tərəfindən bu gün Türkiyəyə yola salınıblar.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizdəki həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək.

“YAŞAT” Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin!

Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin edilir.

Eyni zamanda fond tərəfindən hazırda Türkiyə və İsraildən həkimlərin ölkəmizə dəvət olunması istiqamətində müvafiq tədbirlər görülür. Dəvət olunan həkimlər tərəfindən qazilərimizin müayinə, müalicə və əməliyyatının həyata keçirilməsi nəzərdə tutulur.

Xatırladaq ki, “YAŞAT” Fonduna müraciət etmək və fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin fondun 8110 “Çağrı Mərkəzi” fəaliyyət göstərir.

# ABŞ-ın İllinoys ştatının Skoki şəhərinin meri Xocalı qətliamının 29-cu ildönümü ilə bağlı bəyannamə imzalayıb




ABŞ-ın İllinoys ştatının Skoki şəhərinin meri Corc Van Dusen Xocalı qətliamının 29-cu ildönümü ilə bağlı bəyannamə imzalayıb.

AZƏRTAC xəbər verir ki, ABŞ-ın Orta Qərb ştatları üzrə Azərbaycan Mərkəzinin üzvlərinə və İllinoys ştatının Azərbaycan icmasına ünvanlanmış bəyannamədə deyilir ki, 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı başlatdığı hərbi təcavüz və Azərbaycan xalqına qarşı apardığı etnik təmizləmə siyasəti çərçivəsində keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi ilə erməni silahlı birləşmələri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda qətliam törədiblər. İşğal edilmiş şəhəri tərk etməyə çalışan dinc əhali qırğına məruz qalıb. Nəticədə 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca erməni hərbçiləri tərəfindən qətlə yetirilib. Bəzi ekspertlər Xocalı faciəsini “Azərbaycan Srebrenitsası” adlandırırlar.

Həmçinin sənəddə vurğulanır ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 822, 853, 874 və 884 nömrəli qətnamələri qəbul olunub. Azərbaycanın ərazi bütövlüyünün BMT Baş Assambleyası, Avropa Parlamenti, AŞ PA, ATƏT, ABŞ Dövlət Departamenti və Ağ ev tərəfindən dəstəklənməsi xüsusi qeyd olunur.

Bəyannamədə deyilir ki, bütün bu faktları nəzərə alaraq Skoki meri Corc Van Dusen 2021-ci il fevralın 26-nı şəhərdə Xocalı qətliamı qurbanlarının anım günü elan edib.

# Türkiyədən gələn klinik psixoloqlar Gəncə və Bərdə şəhərlərində də fəaliyyətə başlayacaqlar




Vətən müharibəsi ilə əlaqədar psixoloji problemlər yaşayan qazilərimizin, o cümlədən doğmalarını itirmiş şəhid ailəsi üzvlərinin, erməni terrorundan fiziki və mənəvi zərər görmüş insanların psixoloji reabilitasiyasının daha səmərəli təşkili məqsədilə Fövqəladə Hallar Nazirliyinin (FHN) dəvəti ilə qardaş Türkiyədən ölkəmizə gələn peşəkar klinik-psixoloq və psixoterapevtlərdən ibarət qrup fəaliyyətini uğurla davam etdirir. Qrupun üzvləri artıq bir aya yaxındır ki, nazirliyin psixoloqları ilə birgə paytaxtda çalışırlar.

FHN-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Türkiyədən olan psixoloq mütəxəssislərin iştirakı ilə Bakı ilə yanaşı, fevraldan etibarən Gəncə və Bərdə şəhərlərində də müharibədən və erməni terrorundan fiziki və mənəvi zərər görmüş vətəndaşlarımızın psixoloji reabilitasiyası işinə başlanılacaq. Bu regionlarda yaşayan vətəndaşlar qeydiyyat üçün FHN-in 112 - qaynar telefon xəttinə zəng edə bilərlər.

Psixoloq-mütəxəssislərin qəbulu ödənişsiz həyata keçirilir.

# Vətən müharibəsində şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə sosial və psixoloji dəstək fəaliyyəti həyata keçirilir

Vətən müharibəsində şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinə Müdafiə Nazirliyi və yerli icra hakimiyyəti orqanları tərəfindən sosial və psixoloji dəstək fəaliyyəti həyata keçirilir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabit və dövlət qulluqçuları, eləcə də yerli icra hakimiyyəti orqanlarının nümayəndələri Vətən müharibəsində şəhid olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvləri ilə görüşərək onların sosial problemləri və məişət qayğıları ilə maraqlanıb, bu problemlərin həlli istiqamətində birgə işlər görüblər.

Görüşlərdə itkin düşmüş hərbi qulluqçuların ailə üzvləri ilə söhbət aparılıb və psixoloji işin tələblərinə uyğun olaraq real vəziyyətlə bağlı tövsiyələr verilib.

Psixoloji bərpa və reabilitasiyaya ehtiyacı olan ailə üzvlərinin siyahısı tərtib edilərək ixtisaslaşmış psixoloji müayinə üçün mütəxəssislərə təqdim olunub.

# *Türkiyəli psixoloq:* “Bizə daha çox post-travmatik stres pozuntuları ilə bağlı müraciətlər olur”

Türkiyədən gələn peşəkar klinik-psixoloq və psixoterapevtlərə daha çox post-travmatik stres pozuntuları ilə bağlı müraciətlər olur. Bu, hər bir müharibədən sonra gözlənilən haldır. Post-travmatik stres müharibə sindromudur. Bundan başqa, bizə şiddətli baş ağrıları, aqressivlik, yuxusuzluq, depressiya, təşviş, daim həyəcan keçirmək şikayətləri ilə müraciətlər edilir. Ümumilikdə Azərbaycanda olduğumuz müddətdə 512 nəfərə psixoloji xidmət göstərmişik. Müraciət edən şəxslərdə nəfəs çatışmazlığı, boğulma hissləri, əllərin və bədənin əsməsi, tərləmə əlamətləri də müşahidə olunur.

AZƏRTAC xəbər verir ki, bunu Vətən müharibəsindən sonra mənəvi-psixoloji problemlər yaşayan vətəndaşların psixoloji reabilitasiyasının səmərəli təşkilinə yardım etmək məqsədilə Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə ölkəmizə gəlmiş qardaş Türkiyənin peşəkar klinik-psixoloq və psixoterapevtlərindən ibarət nümayəndə heyətinin rəhbəri Selçuk Demirtaş jurnalistlərə müsahibəsində deyib.

O bildirib ki, xüsusilə terrordan zərər çəkmiş insanlarda mərmi düşməsi nəticəsində dilin tutulması, qulağın eşitməməsi, ünsiyyətdən qaçma əlamətləri olur. On iki nəfər bu simptomla bizə müraciət edib. Onların müalicəsi davam edir. Bəziləri artıq danışa və eşidə bilir.

“Psixoloqlarımızın qəbuluna müharibə iştirakçıları, qazilər, şəhid ailələrinin yaxınları, Bərdənin, sərhəd bölgələrinin terrordan zərər çəkmiş sakinləri gəlirlər. Həmin şəxslər gecələr oyanma, qışqırma, qorxu, təşviş əlamətləri ilə müraciət edirlər. Onlara da əlimizdən gəldiyi qədər kömək göstərir və müalicə edirik. Qısa müddətdə səmərə verən müalicə üsullarından istifadə edirik. Yuxusuzluq, aqressiya, şiddətli baş ağrıları, stres adətən ilk seansdan sonra keçir. Həm Bakıda, həm də Gəncə və Bərdədə psixoloq-mütəxəssislərə hələ də müraciət etməyən insanlar var. Onları da dinləyib lazımi kömək göstərəcəyik” deyə Selçuk Demirtaş vurğulayıb.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ Elektrik təsərrüfat malları və alətlər dəstinin satın alınması ilə əlaqədar

***açıq tender elan edir***

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 100 (bir yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**

**“Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununun 29.2-ci maddəsinə əsasən tenderdə iştirak haqqı geri qaytarılmır.**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir) və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019 və ya 2020-ci il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa notarial təsdiq edilməsi mütləqdir). 18.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması barədə təsdiqedici sənəd;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat, Dövlət Statistika Komitəsindən alınmalıdır. (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12.03.2021-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **29.03.2021-ci il saat 14:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **30.03.2021-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## “Azərişıq” ASC Biləsuvar rayonu 110/35/6 kV-luq “Səmədabad”, Cəlilabad rayonu 110/35/10 kV-luq “Cəlilabad”, 110/35/10 kV-luq “ETK-4” yarımstansiyalarında və Qəbələ EŞ-in İnzibati binasında təmir işlərinin satın alınması məqsədilə

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqəyə daxil olduqdan sonra “ASAN Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

LOT-1: Biləsuvar rayonu 110/35/6 kV-luq “Səmədabad”, Cəlilabad rayonu 110/35/10 kV-luq “Cəlilabad” , 110/35/10 kV-luq “ETK-4” yarımstansiyalarında və Qəbələ EŞ-in İnzibati binasında təmir işlərinin satın alınması.

**İştirak haqqı - 700 manat**
**“Azərişıq” ASC**
**H/h: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqələndirici şəxs - Namiq Heybətov (telefon: 440-39-93 daxili (92-19))**
**namiq.heybetov@azerishiq.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə(Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron portal vasitəsi ilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satinalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 mart 2021-ci il saat 11:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **02 aprel 2021-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **05 aprel 2021-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



## “Azərişıq” ASC Bakı şəhəri, Binəqədi rayonu ərazisində yerləşən 35/6 kV-luq 2x16 MVA gücündə 91 saylı YS-nın əvəzinə 2x40 MVA gücündə 110/35/6 kV-luq yeni yarımstansiyanın tikintisi işlərinin satın alınması məqsədilə

***açıq tender elan edir***

Tender 1 (bir) LOT üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə İştirak haqqını yalnız “Asan Ödəniş” vasitəsilə həyata keçirilə bilər. Müsabiqəyə daxil olduqdan sonra “Asan Ödəniş”lə “ödə” düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar.

LOT-1: Bakı şəhəri, Binəqədi rayonu ərazisində yerləşən 35/6 kV-luq 2x16 MVA gücündə 91 saylı YS-nın əvəzinə 2x40 MVA gücündə 110/35/6 kV-luq yeni yarımstansiyanın tikintisi işlərinin satın alınması.

**İştirak haqqı - 1000 manat**
**“Azərişıq” ASC**
**H/h: AZ83AIIB33020029441802068118**
**VÖEN: 9900069391**
**Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T Code: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Əlaqələndirici şəxs - Namiq Heybətov (telefon: 440-39-93 daxili (92-19))**
**namiq.heybetov@azerishiq.az**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış, sahibkarlıq kateqoriyası haqqında məlumat (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının mikro, kiçik, orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir (iri sahibkarlıq subyektləri qanuna əsasən elektron portal vasitəsi ilə keçirilən tenderdə iştirak edə bilməz));*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);*
- *iddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi cari işlər və müqavilələr barədə məlumatlar (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirməsi imkanı) haqqında məlumat (Arayış formasında imzalanıb möhürlənərək skan formasında PDF formatında təqdim olunmalıdır);*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satinalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi (Təsdiqedici sənədin orijinalı skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).*

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **18 mart 2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank təminatı sənədlərini **02 aprel 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **05 aprel 2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərişıq" ASC tərəfindən "Azərbaycan" qəzetinin 16 fevral 2021-ci il tarixli 35 (8628) saylı nömrəsində dərc olunmuş **"Müxtəlif videomüşahidə və görüntü cihazlarının satın alınması"** üzrə kotirovka sorğusu elanı qüvvədən düşmüş hesab edilsin.

*Tender komissiyası*

## "Bakı Sığorta" ASC-nin səhmdarlarının nəzərinə

29 mart 2021-ci il saat 11:00-da "Bakı Sığorta" ASC-nin Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti, 62 ünvanında yerləşən "Gülüstan Residence" kompleksinin 2 saylı binasının 3-cü mərtəbəsində yerləşən ofisində cəmiyyətin səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir. İclasın gündəliyi, əlavə məlumat, o cümlədən səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olmaq üçün "Bakı Sığorta" ASC-yə (Bakı şəhəri, Nəsimi rayonu, Bülbül prospekti, 62), həmçinin 969 telefon nömrəsi vasitəsilə müraciət edilə bilər.

*İdarə Heyəti*

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi Özünüməşğulluq tədbirlərini həyata keçirmək məqsədilə respublikanın rayonları üzrə əhalinin özünüməşğulluğunun təmin olunması ilə bağlı tələb olunan kənd təsərrüfatı mallarının satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqələndirici şəxs: Tender komissiyası (012) 497 71 34) ünvanından ala bilərlər.

**İştirak haqqı: 500 ( beş yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Kapital Bank ASC 28 May filialı**
**Kod: 200123**
**M/h: AZ37NABZ01350100000000001944**
**VÖEN: 9900003611**
**S.W.I.F.T AIIBAZ2X**
**H/h: AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir (01.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (01.02.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığının, təcrübəsinin və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **05 aprel 2021-ci il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **13 aprel 2021-ci il saat 15:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **14 aprel 2021-ci il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC İlk yardım çantalarının satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər.

Müraciət üçün son müddət 3 mart 2021-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152,"Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1145**

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Dövlət Neft Fondu

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) Çap və nüsxələmə avadanlıqlarının kartric, toner və digər ehtiyat hissələrinin satın alınması ilə bağlı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender üsulu ilə elektron satınalma (e.tender) keçirir.

Tenderdə yalnız mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər. İddiaçılara təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) Asan və ya elektron imzaları vasitəsilə daxil olsunlar və e.tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün iddiaçılar lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən iddiaçılar 100 AZN məbləğində müəyyən edilən iştirak haqqını Portal üzərindən "ASAN ödəniş" sistemində keçid edərək ARDNF-nin qeydiyyatdan keçmiş aşağıdakı hesabına köçürdükdən sonra tələb olunan sənədləri və tender təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər. Tələb olunan sənədlərin siyahısı Portalda göstərilmişdir.

**Azərbaycan Respublikasının Dövlət Neft Fondu**
**Ünvan: AZ1029, Bakı şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, 165**
**VÖEN: 9900041961**
**H/h:AZ84NABZ01360400000000001944**
**Bank: Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**M/h: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T BIK: NABZAZ 2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və təklifin təminatı istisna olmaqla) 12 mart 2021- ci il saat 10:00-a, tender təkliflərini (təklifin təminatı ilə birlikdə) 29 mart 2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. Təkliflər 30 mart 2021-ci il saat 10:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat

3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## "Təmiz Şəhər" Açıq Səhmdar Cəmiyyəti

### *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir:
Mexanizmlər və avadanlıqlar üçün ləvazimatların satın alınması.

Tender iştirakçıları **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olmaqla tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Təkliflərin qiymətləndirilməsində analoji işlərdə təcrübə, maliyyə vəziyyəti, aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi üçün zəruri olan potensial meyarlara üstünlük veriləcəkdir.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər:

**İştirak haqqı - 200 AZN**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesab: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7**
**İqtisadi təsnifat kodu: 142330**
**İştirak üçün ödənilən vəsait heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla ) **15 mart 2021-ci il saat 15:00-a** qədər, tender təklifi və bank təminatını isə **30 mart 2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **31 mart 2021-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**Qeyd:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən icbari tibbi sığortaya, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə və onun fəaliyyətinə aid məlumatların mediada monitorinqi, toplanılması, emalı, təhlili və arxivləşdirilməsi xidmətlərinin satın alınması üçün 27 yanvar 2021-ci il tarixdə elan edilmiş açıq tender üzrə malgöndərənlərin sorğusu əsasında "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsinə əsasən ilkin sənədlərin qəbulu tarixi 26 fevral 2021-ci il saat 17:00-dək, tender təklifləri və təkliflərin təminatı sənədlərinin qəbulu isə 09 mart 2021-ci il saat 17:00-dək uzadılır. Tender üzrə təklif zərflərinin açılışı 10 mart 2021-ci il saat 17:00-da keçiriləcəkdir. Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

*Tender komissiyası*


«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev və şirkətin rəhbərliyi SOCAR-ın Sosial məsələlər üzrə vitse-prezidenti Bədəl Bədəlova qardaşı

**DÜNYAMALI BƏDƏLOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5214
Sifariş 275
Qiyməti 40 qəpik